RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 97 (10117) 5 iyun 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Nümunəyə çevrilən inkişaf

## Azərbaycanın yüksəlişi dünya ölkələri üçün unikal örnəkdir

Azərbaycanın unikal inkişaf paradiqması və resurslardan düzgün istifadə fəlsəfəsi Prezident İlham Əliyevin iyunun 1-də "Bakı Enerji Həftəsi"ndə çıxışında dəqiq və sistemli şəkildə bəyan edilib. Dövlətimizin başçısı bu məqama toxunarkən vurğulayıb: "Hər bir ölkə torpağının təkində və ya dənizinin dibində olanı öz inkişafı üçün istifadə edir. Öz müstəqilliyinin əvvəlində Azərbaycanda məhz belə hal idi. Neft və qaz bizim üçün müstəqil ölkə kimi yaşamağın yeganə yolu oldu. Beləliklə, ölkələr neftin olub-olmaması ilə deyil, gəlirlərdən necə istifadə etdiklərinə görə mühakimə edilməlidir. Diqqət yetirilməlidir ki, öz ölkəsinin inkişafı, xalqının daha yaxşı yaşayış şəraitinin təminatı, "yaşıl gündəlik" məsələlərinə enerjinin istehsalından əldə edilən vəsaitləri onlar necə sərmayə kimi yatırırlar. Düşünürəm ki, Azərbaycan çox bariz nümunədir. Bütün bunlar göstərir ki, ölkənizi beynəlxalq sərmayələrə açıq edəndə, milli maraqlara əsaslanan müdrik siyasət aparanda siz uğur qazanırsınız".

Təbii resurslar özlüyündə mütləq uğur faktoru sayılmır. Əsas meyar məsuliyyətli və düzgün idarəetmədir. Azərbaycanın son illərdə neft-qaz gəlirlərini həm də "yaşıl enerji" layihələrinə, bərpaolunan enerji mənbələrinə yatırması ölkəmizin qlobal ekoloji məsuliyyətini və uzaqgörənliyini nümayiş etdirir. Azərbaycan ənənəvi resurslardan əldə etdiyi vəsaitlə gələcəyin texnologiyalarını və təmiz enerjisini maliyyələşdirir. Yəni bir çox dövlətin daxili ziddiyyətlər və xarici asılılıq səbəbindən idarə edə bilmədiyi təbii sərvətlər Azərbaycanda milli maraqlara söykənən müdrik və praqmatik siyasət sayəsində iqtisadi dayanıqlılığın hərəkətverici qüvvəsinə çevrilir. Bu kurs resursları tərəqqi modelinə çevirməyin qlobal miqyaslı ən uğurlu nümunəsidir.

Prezident İlham Əliyev vurğulayıb ki, müstəqil ölkə kimi yaşamaqda və irəliyə getməkdə bizim üçün yeganə yol sahib olduğumuz təbii sərvətlərdən istifadə idi: "Azərbaycan ilk ölkə idi ki, Xəzərin ehtiyatlarını beynəlxalq neft şirkətlərinə açıq etdi. Həmin vaxtdan etibarən çox hadisələr oldu. Əgər bu gün biz Azərbaycana nəzər salsaq, həmin transformasiyaya gəldikdə, bu sərvətlərdən necə istifadə etdiyimizə, onun yenidən sosial infrastruktura, təhsilə, səhiyyəyə, enerji sahəsinin inkişafına yatırdığımıza əsasən deyə bilərik ki, ölkələr necə inkişaf etməlidir və bu yol 1990-cı illərin əvvəlində üzləşdiyimiz eyni problemlərdən müəyyən dərəcədə əziyyət çəkən ölkələr üçün örnək olmalıdır".

4

## Azərbaycan-Avropa İttifaqı münasibətləri yeni mərhələyə keçir



Azərbaycan hər zaman tərəfdaşlıq münasibətlərində səmimi və şəffaf fəaliyyət prinsiplərinə sadiq qalsa da, bunu da demək lazımdır ki, ötən illər ərzində Avropa İttifaqı daxilindəki müəyyən dairələrin ölkəmizin uğurlarına qarşı qeyri-konstruktiv və ikilistandartlı mövqe tutduğunun şahidi olmuşuq. Xüsusilə Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsindən sonra Ermənistanla münasibətlərin normallaşdırılması prosesində Aİ-nin bəzi addımları regional sülhə töhfə vermək məqsədindən uzaq olub.

Bu qəbuledilməz fəaliyyətin ən bariz nümunəsi Ermənistan-Azərbaycan sərhədinin Ermənistan tərəfində yerləşdirilən Aİ-nin müşahidəçi missiyasıdır. Adı "mülki" olsa da, mahiyyətcə kəşfiyyat alətinə çevrilən bu qrup "binokl diplomatiyası" həyata keçirərək regionda gərginlik yaratmaqdan başqa işə yaramır.

7

## *Böyük qayıdışın hüquqi təməli: dayanıqlı məskunlaşmaya aparan yol*

### Dövlət sosial siyasətini yeni mərhələnin tələblərinə uyğun qurur



44 günlük Vətən müharibəsində qazanılan qələbə isə ölkəmizin qarşısında tamamilə yeni reallıq yaratdı. Artıq dövlətin əsas vəzifəsi məcburi köçkünlük şəraitini idarə etmək deyil, insanların doğma torpaqlarına qayıdışını və həmin torpaqlarda dayanıqlı həyat qurmasını təmin etmək idi. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın təsdiq olunması bu yeni mərhələnin hüquqi və strateji əsaslarını müəyyənləşdirdi.

6

## Ölkəmizin qlobal enerji siyasətinin mühüm subyektlərindən biri olduğu növbəti dəfə təsdiqləndi

### Azərbaycan enerji təhlükəsizliyi ilə "yaşıl transformasiya" arasında balans yaradan azsaylı ölkələrdəndir




Son dövrlərin qlobal reallıqları isə göstərdi ki, dünya iqtisadiyyatı hələ uzun illər ərzində neft və qaz olmadan ayaqda dura bilməz. Enerji keçidi vacibdir, "yaşıl enerji" gələcəyin əsas istiqamətlərindən biridir, lakin bu proses real iqtisadi tələblər və enerji təhlükəsizliyi ilə uzlaşdırılmalıdır. Cənab İlham Əliyevin də vurğuladığı kimi, əsas məsələ ideoloji yanaşmalar deyil, praqmatizmdir. Enerji təhlükəsizliyi ilə "yaşıl transformasiya" arasında balans tapılmalıdır və Azərbaycan məhz bu yanaşmanı seçib. Ölkəmiz həm neft-qaz ehtiyatlarından səmərəli istifadə edir, həm də bərpaolunan enerji layihələrinə milyonlarla dollar investisiya yatırır. Bu baxımdan Azərbaycan liderinin ABŞ Prezidenti Donald Trampa enerji siyasətini "yenidən normal məcraya qaytardığına görə" təşəkkür ifadəsi diqqətçəkən siyasi mesaj idi. Bu fikir enerji təhlükəsizliyinin ideoloji yox, iqtisadi və strateji kateqoriya kimi qəbul edilməsinin vacibliyini göstərir.

8



## Azərbaycan memarlığı: keçmişdən müasirliyə

Müasir Bakının simvoluna çevrilən "Alov qüllələri", Heydər Əliyev Mərkəzi və digər tikililər ölkəmizin memarlıq sahəsində qazandığı uğurların göstəricisidir. Bu layihələr milli memarlıq ənənələri ilə müasir texnologiyaların vəhdətini əks etdirir. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Bir sözlə, Bakıda, qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur. Bu, həqiqətən, əcdadlarımızın istedadının bariz nümunəsi, tarixi və memarlıq irsimizi necə qoruduğumuzun təzahürüdür. Şəhərsalma nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox şəhərləri üçün gündəlik əsaslarla işlədiyimiz məsələdir".

10

## AÇG-də daha bir yenilik

### MLT texnologiyası maksimum neftverməyə dəstək göstərəcək



AÇG-nin operatoru olan BP şirkətindən aldığımız məlumata görə, burada ilk dəfə olaraq multilüləli quyu (MLT) texnologiyası uğurla tətbiq edilib. Bu, Xəzər dənizinin ən uzun müddət istismarda olan yataqlarından birindən neftvermə əmsalının maksimuma çatdırılması və hasilatın uzunmüddətli davamlılığının təmin edilməsi istiqamətində mühüm bir addımdır.

MLT texnologiyasının tətbiqi AÇG-nin mürəkkəb geoloji strukturlarında qazma işlərinin texniki çətinliklərini aradan qaldırmaqla yanaşı, platformalarda mövcud quyu şaxtalarının məhdudluğu probleminin həllinə də dəstək verir. Bu texnologiya bir quyu lüləsindən lay-kollektora bir neçə yerdən daxil olmağa imkan verməklə lay-kollektora çıxışı genişləndirmək, drenaj səmərəliliyini artırmaq və mövcud infrastrukturdan maksimum faydalanmaq üçün şərait yaradır.

7

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Dost ölkənizin Müstəqillik Günü münasibətilə Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına ən səmimi salamlarımı, xoş arzularla dolu təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, qardaş ölkənizə davamlı tərəqqi və firavanlıq, eyni zamanda ölkələrimiz arasında qarşılıqlı əlaqələrin daha da inkişaf etməsini və möhkəmlənməsini arzu edirəm.

*Ən yüksək hörmət və ehtiramla,*

***Şeyx Təmim bin Həməd Al TANİ,***
***Qətər Dövlətinin Əmiri***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Dost Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Zati-alinizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzu edirəm.

*Ən yüksək hörmət və ehtiramla,*

***Şeyx Abdullah bin Həməd Al TANİ,***
***Qətər Dövləti Əmirinin müavini***

❖ ❖ ❖

Allahın salamı, rəhməti və bərəkəti üzərinizdə olsun!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunam.



Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Salman bin Həməd Al XƏLİFƏ,***
***Bəhreyn Krallığının vəliəhdi və Baş naziri***

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu.

Dost Azərbaycan Respublikasının Müstəqillik Gününün növbəti ildönümü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək Sizə uzun ömür, cansağlığı, müvəffəqiyyətlər, Azərbaycan Respublikasına və onun dost xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Şeyx Sabah Xalid əl-Hamad əl-Mübarək ƏL-SABAH,***
***Küveyt Dövlətinin Vəliəhdi***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Dost Azərbaycan Respublikasının Müstəqillik Gününün ildönümü münasibətilə zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan sevinc duyuruq.

Fürsətdən istifadə edərək ölkələrimizi və xalqlarımızı birləşdirən möhkəm dostluq əlaqələrini alqışlamaqdan məmnunluğumuzu ifadə edir, bu əlaqələrin birgə maraqlar naminə daha da gücləndirilməsi niyyətində olduğumuzu vurğulayırıq.

Zati-aliləri, Sizə uzun ömür, cansağlığı, dost xalqınıza davamlı inkişaf və rifah diləyirik.

*Ən xoş arzularla,*

***Şeyx Əhməd Abdullah əl-Əhməd ƏL-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycana - bu mübarək torpağa dəfələrlə səfər etmişəm. Cəsur xalqınızın müstəqillik uğrunda mübarizə qəhrəmanları haqqında həqiqi dostum, atanız unudulmaz Heydər Əliyevdən eşitmişəm. Buna görə də Azərbaycanın müstəqilliyi mənim üçün, sadəcə, söz deyil. Mən bilirəm ki, Ukrayna xalqı da Azərbaycanı yalnız dost kimi deyil, həm də itirilmiş əraziləri geri qaytarmağa və ərazi bütövlüyünü bərpa etməyə imkan verən milli iradənin nümunəsi kimi qəbul edir. Siz buna nail oldunuz, bizdə isə bu, hələ qarşıdadır. Bu, xalqlarımız arasında xüsusi tarixi bağ yaradır.

Ümid edirəm ki, Azərbaycan xalqı da bunu hiss edir və onun həqiqi dostunun kim olduğunu başa düşür.

Gözəl Vətəninizə inkişaf və firavanlıqla bağlı ən səmimi arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Leonid KUÇMA,***
***Ukraynanın sabiq Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransı və Amerika yəhudi icması adından 28 May - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırırıq.

Azərbaycan Xalq Cümhuriyyətinin 108-ci ildönümünün qeyd edildiyi bir vaxtda bu tarixi mərhələnin əhəmiyyətini və onun yaratdığı parlamentli idarəetmənin, hüquq bərabərliyinin və inklüzivliyin davamlı irsini dəyərləndiririk. Xüsusilə 1918-ci ildə respublikanın ilk parlamentində yəhudi nümayəndəsinin də yer alması Azərbaycanda uzunmüddətli birgəyaşayış və qarşılıqlı hörmət ənənəsinin sübutudur.

Amerikalı yəhudi liderlərindən ibarət nümayəndə heyətimiz bu ilin fevralında Azərbaycana səfər etmək şərəfinə nail oldu və biz ölkənizi fərqləndirən şəffaflıq, plüralizm və qarşılıqlı hörmət dəyərlərinin şahidi olduq. Azərbaycandan ölkənin uzunmüddətli dini tolerantlıq ənənəsinin, qədim tarixinin və zəngin mədəni irsinin, səfərimiz boyunca gördüyümüz mehribanlığın və qonaqpərvərliyin bizdə yaratdığı dərin təəssüratla qayıtdıq.

Cənab Prezident, bu əlamətdar milli bayram münasibətilə Azərbaycan Respublikasının və onun xalqının davamlı firavanlığı, təhlükəsizliyi və uğurları ilə bağlı ən səmimi arzularımızı qəbul etməyinizi xahiş edirik. Gələcəkdə icmalarımız arasında qarşılıqlı anlaşmanı, dostluq və əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirməyi səbirsizliklə gözləyirik.

*Hörmətlə,*

***Betsi Berns KORN,***
*ABŞ-nin Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri,*
***Uilyam DAROF,***
*Konfransın baş icraçı direktoru*

# Bakıda IV Milli Kibertəhlükəsizlik Forumu keçirilib



Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı və Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin əsas tərəfdaşlığı ilə iyunun 4-də Bakıda IV Milli Kibertəhlükəsizlik Forumu uğurla keçirilib.

AZƏRTAC xəbər verir ki, artıq ölkənin kibertəhlükəsizlik sahəsində ən nüfuzlu platformalarından birinə çevrilən forum dövlət qurumlarını, Milli Məclisin deputatlarını, beynəlxalq təşkilatların nümayəndələrini, xarici ölkələrin kibertəhlükəsizlik institutlarını, özəl sektor təmsilçilərini, ali təhsil müəssisələrinin rəhbərlərini, ekspertləri və gənc mütəxəssisləri bir araya gətirib.

Tədbir çərçivəsində kibertəhlükəsizlik ekosisteminin inkişafı, beynəlxalq əməkdaşlıq, rəqəmsal transformasiya, süni intellekt texnologiyalarının təhlükəsizlik mühitinə təsiri və yerli innovativ həllərin inkişaf perspektivləri müzakirə olunub. Forumun sərgi hissəsində isə tərəfdaş şirkətlər tərəfindən müasir kibertəhlükəsizlik həlləri nümayiş etdirilib.

Forum Azərbaycanın Dövlət himninin səsləndirilməsi və Vətən uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Forumun rəsmi açılış mərasimində Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının icraçı direktoru Rauf Cabarov çıxış edərək, ölkədə kibertəhlükəsizlik ekosisteminin inkişafı, dövlət və özəl sektor arasında əməkdaşlığın genişləndirilməsi, insan kapitalının formalaşdırılması və beynəlxalq tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən fəaliyyətlər barədə məlumat verib. Açılış mərasimində çıxış edən Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisinin müavini Allahverən İsmayılov, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin sədri Arzu Nağıyev və Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti Rasim Əliquliyev kibertəhlükəsizliyin milli təhlükəsizliyin mühüm tərkib hissəsi kimi strateji əhəmiyyətini vurğulayıblar.

Çıxışlarda rəqəmsal transformasiya şəraitində informasiya təhlükəsizliyinin təmin olunması, dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, elmi tədqiqatların və innovativ həllərin tətbiqinin genişləndirilməsi, eləcə də ölkənin kibermüdafiə potensialının artırılması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs olunub.

"Milli Kibertəhlükəsizlik Ekosistemi" adlı ilk sessiyada Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin rəisi Davud Rüstəmov, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Baş idarə rəisinin müavini Tural Məmmədov, Moldova Kibertəhlükəsizlik Agentliyinin direktoru Mihai Lupaşcu və "Huawei Technologies" şirkətinin Yaxın Şərq və Mərkəzi Asiya regionu üzrə baş kibertəhlükəsizlik və məxfilik direktoru Corey Deng çıxış edərək, milli kibertəhlükəsizlik strategiyaları, kritik infrastrukturun qorunması, kibercinayətkarlıqla mübarizə və beynəlxalq təcrübələr haqqında təqdimatlar ediblər.

Forum çərçivəsində Corey Deng Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının Məşvərət Şurasına üzv təyin olunması münasibətilə AKTA-nın Fəxri Üzvlük Sertifikatı ilə təltif edilib. Eyni zamanda AKTA ilə "Huawei Technologies" arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandum kibertəhlükəsizlik sahəsində bilik və təcrübə mübadiləsinin genişləndirilməsinə, birgə təşəbbüslərin həyata keçirilməsinə və insan kapitalının inkişafına dəstək məqsədi daşıyır.

Forum zamanı AKTA-nın yeni təşəbbüsü olan "CyberAward" layihəsinin təqdimatı keçirilib. Layihə ölkənin kibertəhlükəsizlik ekosisteminə mühüm töhfələr verən mütəxəssislərin və təşkilatların təşviq olunmasını hədəfləyir.

Tədbirin diqqətçəkən hissələrindən biri də ilk dəfə təşkil olunan ictimai sual-cavab sessiyası olub. Sessiya çərçivəsində tələbələr tərəfindən əvvəlcədən təqdim edilmiş suallar videoformatda nümayiş etdirilib, universitet rəhbərləri və özəl sektor nümayəndələri isə bu sualları cavablandırıblar. Bu təşəbbüs gənclərlə sənaye və akademik liderlər arasında açıq dialoqun qurulmasına xidmət edib.

Forum çərçivəsində AKTA ilə Azərbaycan Dövlət İqtisad Universiteti arasında əməkdaşlıq memorandumu da imzalanıb. Bundan əlavə, AKTA, Ukrayna Elmi Kibertəhlükəsizlik Assosiasiyası, Moldova Texniki Universiteti və Gürcüstan Elmi Kibertəhlükəsizlik Assosiasiyası arasında regional əməkdaşlığı gücləndirməyə yönəlmiş çoxtərəfli memorandumun imzalanması baş tutub. Sənəd kibertəhlükəsizlik sahəsində təcrübə mübadiləsi, birgə layihələr və regional tərəfdaşlığın inkişafını nəzərdə tutur.

"Regional təcrübə və əməkdaşlıq" panelində Qazaxıstan, Türkiyə, Estoniya və Azərbaycanın aparıcı ekspertləri kibertəhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlıq, regional çağırışlar və perspektivlər ətrafında fikir mübadiləsi aparıblar.

Günün ikinci yarısında keçirilən sessiyalar "Rəqəmsal transformasiyada kiberçağırışlar", "Süni intellektin kibertəhlükəsizliyə təsiri və innovativ trendlər" və "Müasir kibertəhlükəsizlik təhdidləri" mövzularını əhatə edib. Sessiyalarda yerli və beynəlxalq ekspertlər rəqəmsal transformasiya prosesində yaranan risklər, süni intellektin kibermüdafiədə tətbiqi, avtomatlaşdırılmış təhlükənin aşkarlanması, davranış analitikası və müasir təhlükələrə qarşı müdafiə strategiyaları barədə təqdimatlar ediblər.

Forumun yekun sessiyasında kiberdiaspor nümayəndələri beynəlxalq təcrübələrini iştirakçılarla bölüşüb, yerli kibertəhlükəsizlik məhsulları və innovativ startap layihələri təqdim olunub. Tədbir çərçivəsində həmçinin interaktiv viktorina keçirilib və qaliblər mükafatlandırılıblar.

IV Milli Kibertəhlükəsizlik Forumu ölkədə kibertəhlükəsizlik sahəsində dövlət, özəl sektor, akademik mühit və beynəlxalq tərəfdaşlar arasında əməkdaşlığın gücləndirilməsi, bilik və təcrübə mübadiləsinin genişləndirilməsi, eləcə də yeni tərəfdaşlıqların formalaşdırılması baxımından mühüm platforma kimi öz missiyasını uğurla yerinə yetirib.

Tədbirdə səsləndirilən fikirlər, imzalanan əməkdaşlıq sənədləri və təqdim olunan təşəbbüslər Azərbaycanın kibertəhlükəsizlik ekosisteminin inkişafına mühüm töhfə verəcək.

# Leyla Əliyeva və Arzu Əliyeva 11 nömrəli inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbində olublar





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə 11 nömrəli inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbində olublar.



AZƏRTAC xəbər verir ki, qonaqlar uşaqlarla görüşüb, onlara hədiyyələr təqdim ediblər. Ümumtəhsil məktəbində onlar "Qurma" adlı art-studiya ilə tanış olublar. Burada xüsusi qayğıya ehtiyacı olan uşaqların hazırladıqları xalçalar, rəsm əsərləri və tikiş nümunələri nümayiş etdirilir.

Məktəbdə həmçinin əyləncəli proqram təşkil olunub. Uşaqlar öz əl işlərini qonaqlara hədiyyə ediblər.

# Azərbaycanın və İranın xarici işlər nazirləri arasında telefon danışığı olub

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə İranın xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı olub.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, telefon danışığı zamanı Azərbaycan-İran ikitərəfli münasibətlərinin cari vəziyyəti və əməkdaşlıq perspektivləri, habelə regionda mövcud vəziyyət və təhlükəsizlik məsələləri müzakirə olunub. Nazir Seyid Abbas Əraqçi İran ətrafında aparılan danışıqlar prosesi və son vəziyyətlə bağlı ətraflı məlumat verib.

Nazir Ceyhun Bayramov regional sabitliyin qorunması baxımından diplomatik səylərin əhəmiyyətini vurğulayıb.

Tərəflər həmçinin ikitərəfli və regional gündəlikdə duran digər məsələlər və son proseslər ətrafında müzakirələr aparıblar.

# Azərbaycan XİN başçısı Braziliya səfiri ilə görüşüb

İyunun 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Braziliyanın ölkəmizə yeni təyin olunmuş səfiri Bernard Klinqli ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı səfir Bernard Klinql etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinatı münasibətilə təbrik edib, ona Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər Azərbaycan ilə Braziliya arasında mövcud dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər. Siyasi dialoqun intensivləşdirilməsinin, qarşılıqlı səfərlərin və məsləhətləşmələrin ikitərəfli əlaqələrin daha da genişlənməsinə töhfə verdiyi vurğulanıb.

Görüşdə ticarət, investisiya, enerji, kənd təsərrüfatı, turizm, aviasiya, təhsil, mədəniyyət, idman, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib. Azərbaycan və Braziliya arasında Ticarət və İnvestisiya Əməkdaşlığı üzrə Birgə İşçi Qrupunun fəaliyyəti, iqtisadi əlaqələrin inkişaf etdirilməsi üzrə əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. İki ölkə arasında qanunvericilik bazasının daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı çərçivəsində əməkdaşlıq məsələlərini, çoxtərəfli diplomatiya sahəsində qarşılıqlı fəaliyyət imkanlarını müzakirə ediblər. Bu çərçivədə iqlim gündəliyi və COP prosesləri üzrə nümunəvi əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Baş nazir Əli Əsədov TDT-yə üzv ölkələrin Mərkəzi Banklar Şurasının iclasının iştirakçıları ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 4-də Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin Mərkəzi Banklar Şurasının iclasının iştirakçıları ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə şuranın iclasının əhəmiyyəti vurğulanıb, tədbirin TDT-yə üzv ölkələrin maliyyə sektorları arasında əməkdaşlığın gücləndirilməsinə, bu prosesdə mərkəzi bankların rolunun artırılmasına töhfə verəcəyinə əminlik ifadə olunub.

TDT-yə üzv dövlətlər arasında qarşılıqlı etimada və ortaq maraqlara əsaslanan əməkdaşlığın müxtəlif istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. Cari ildə Azərbaycanın TDT-yə sədrliyi çərçivəsində iqtisadi, ticarət, investisiya, nəqliyyat, enerji, maliyyə, humanitar və digər sahələrdə əlaqələrin daha da genişləndirilməsinə xüsusi diqqət yetirildiyi vurğulanıb.

Azərbaycanda maliyyə-bank sektorunun modernləşdirilməsi məqsədilə həyata keçirilən ardıcıl islahatlar, maliyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması və bank sisteminin sabitliyinin gücləndirilməsi sahəsində əldə olunan nəticələr barədə söhbət açılıb.

Görüşdə həmçinin TDT çərçivəsində maliyyə-bank sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

## "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 167** **Bakı şəhəri, 4 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Sosial sığorta haqqında", "Polis haqqında", "Tibbi sığorta haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 249-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1175 (Cild I); 2024, № 2, maddə 241; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 8 may tarixli 137 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci bənddə "İcra məmurları haqqında" sözləri "Dövlət icra məmurları haqqında", "Xüsusi icra məmurları haqqında" sözləri ilə əvəz edilsin.

2. 2.1.2-ci yarımbənddə "icra məmurları və icra qurumlarının əməkdaşları" sözləri "dövlət icra məmurları, icra qurumlarının əməkdaşları və xüsusi icra məmurları" sözləri ilə əvəz edilsin.

3. 6.1.3-cü yarımbəndə "sənədlərinin" sözündən sonra "dövlət" sözü əlavə edilsin.

4. 11.3-cü bənddə "icra məmurunun" sözləri "dövlət və xüsusi icra məmurlarının" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Nəqliyyat sahəsində rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi genişləndirilir

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iyunun 4-də keçirilən iclasında 4 məsələ müzakirə olunub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Azər Əmiraslanov əvvəlcə Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) müzakirəyə çıxarıb.

Azər Əmiraslanov məsələ ilə bağlı bildirib ki, son illərdə ölkəmizdə nəqliyyat infrastrukturunun modernləşdirilməsi və bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. O, rəqəmsal texnologiyaların tətbiqi fonunda nəqliyyat sektorunda müşahidə olunan inkişaf meyillərinə və bu sahədə meydana çıxan yeni çağırışlara diqqət çəkib. Bildirilib ki, bu qanun layihəsi də nəqliyyat sahəsində rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qlobal inkişaf meyillərinə uyğun olaraq hazırlanıb.

Sonra rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov qanun layihəsi barədə ətraflı məlumat verib, sənədin konseptual baxımdan əhəmiyyətini diqqətə çatdırıb. Qeyd olunub ki, qanun layihəsi ilk növbədə avtomobil, dəmir yolu, metro, tramvay, dəniz və hava nəqliyyatı da daxil olmaqla bütün nəqliyyat növləri üzrə avtonom nəqliyyat vasitələrinin tətbiqi üçün zəruri normativ-hüquqi, texnoloji və institusional bazanın yaradılmasını nəzərdə tutur.

Nəqliyyat nazirinin müavini bildirib ki, avtonom nəqliyyat vasitələrinin və müasir texnologiyaların dünyada getdikcə daha geniş tətbiq olunması nəqliyyat sistemlərinin ənənəvi fəaliyyət modelini dəyişdirir və bu gün nəqliyyat sektoru tarixi əhəmiyyətə malik transformasiya dövrünə qədəm qoyur. Vurğulanıb ki, qanun layihəsində təklif olunan dəyişikliklər də rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi fonunda avtonom nəqliyyatın inkişafı üçün hüquqi əsasların yaradılmasını, nəqliyyat sisteminin təhlükəsizliyinin artırılmasını, iqtisadi səmərəliliyin yüksəldilməsini və xidmət keyfiyyətinin yaxşılaşdırılmasını nəzərdə tutur.

Gündəliyin ikinci məsələsi olan "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı komitənin sədr müavini Azər Badamov məlumat verib. O bildirib ki, təklif olunan dəyişikliklər mopedlərin texniki baxışdan keçirilməsi, dövlət qeydiyyatına alınması, sürücülük vəsiqəsinin verilməsi məsələlərini tənzimləyir, müvafiq dövlət rüsumlarını müəyyən edir, eləcə də qeydiyyatdan keçmiş mopedlərin istifadəsi ilə bağlı üçüncü şəxslər qarşısında mülki məsuliyyətin icbari sığortasını nəzərdə tutur.

Üçüncü məsələ olan "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Hesablama Palatasının Hüquqi təminat və keyfiyyətə nəzarət şöbəsinin müdiri Nuranə Səfərova məlumat verib. Diqqətə çatdırılıb ki, qanun layihəsi Hesablama Palatasının fəaliyyətinin müasir çağırışlara, beynəlxalq audit standartlarına və milli qanunvericiliyin tələblərinə uyğun olaraq təkmilləşdirilməsini nəzərdə tutur. Qeyd olunub ki, layihədəki dəyişikliklərə əsasən, Naxçıvan Muxtar Respublikasının büdcəsinə dair nəzarət mexanizmlərinin qanunvericiliklə uyğunlaşdırılması, kənar dövlət maliyyə nəzarəti tədbirlərinin həyata keçirilməsi zamanı məlumatların əldə olunması qaydalarının dəqiqləşdirilməsi, həmçinin dövlət auditi informasiya sisteminin yaradılması və audit fəaliyyətində rəqəmsal texnologiyaların tətbiqi üçün hüquqi əsasların formalaşdırılması təmin ediləcək.

Dördüncü məsələ olan Torpaq Məcəlləsində, "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" və "Tənzimlənən qiymətlər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı İqtisadiyyat Nazirliyinin Layihələrin idarəolunması şöbəsinin müdiri Zamir Dibirov məlumat verib. O bildirib ki, qanun layihəsi "Dövlət-özəl tərəfdaşlığı haqqında" qanunun tətbiqinin təmin edilməsi, dövlət-özəl tərəfdaşlığı layihələrinin həyata keçirilməsi zamanı torpaq münasibətlərinin və digər əlaqəli hüquqi mexanizmlərin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Qanun layihələrinin müzakirəsində komitə sədri Azər Əmiraslanov, komitə sədrinin müavini Azər Badamov, komitə üzvləri Əli Məsimli, Tahir Mirkişili və Aydın Hüseynov çıxış edərək dəyişikliklər haqqında fikirlərini bildiriblər, qeydlərini səsləndiriblər.

İclasda müzakirə olunan qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

*"Azərbaycan"*

## "Azərbaycan Respublikası Nazirlər Kabinetinin" Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli və "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" 2025-ci il 7 noyabr tarixli 333 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 165** **Bakı şəhəri, 3 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, ölkədə aparılan struktur islahatlarının nəticəsində yaradılan yeni qurumların fəaliyyətə başlaması ilə bağlı onların maliyyə təminatının həyata keçirilməsi, habelə Azərbaycan Respublikası büdcə xərclərinin inzibati təsnifatının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189, № 3, maddə 264; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 aprel tarixli 96 nömrəli, 29 aprel tarixli 123 nömrəli, 12 may tarixli 141 nömrəli, 14 may tarixli 145 nömrəli və 15 may tarixli 149 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 33-1-ci, 65-1-ci, 65-2-ci, 77-1-ci, 77-2-ci, 77-3-cü, 119-1-ci, 124-1-ci, 124-2-ci və 124-3-cü hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 33-1. | "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxs | 1645 |
| 65-1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 1585 |
| 65-2. | Dövlət büdcəsinin Ehtiyat Fondu | 1586 |
| 77-1. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti | 1632 |
| 77-2. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti | 1635 |
| 77-3. | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti | 1913 |
| 119-1. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi | 1288 |
| 124-1. | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Geodeziya və Kartoqrafiya Agentliyi | 1811 |
| 124-2. | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi | 1815 |
| 124-3. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi | 1816 |

1.2. 154-cü hissə ləğv edilsin;
1.3.aşağıdakı məzmunda 161-1-ci, 161-2-ci, 161-3-cü, 162-1-ci, 163-1-ci, 163-2-ci hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 161-1. | "Media Mükəmməllik Şəbəkəsi" qeyri-kommersiya təşkilatı | 1644 |
| 161-2. | Azərbaycan Dövlət Su ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya üzrə Layihələndirmə və Elmi Tədqiqat İnstitutu | 1831 |
| 161-3. | Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat və Dendrologiya Bağı" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1836 |
| 162-1. | "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Rəqəmsal Maliyyə Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1844 |
| 163-1. | "Radio-Televiziya Yayımı və Peyk Kommunikasiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1902 |
| 163-2. | Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1930 |

1.4. 194-cü və 196-cı hissələr ləğv edilsin;
1.5.aşağıdakı məzmunda 200-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 200-1. | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi publik hüquqi şəxs | 1643 |

1.6. 201-ci hissə ləğv edilsin;
1.7.aşağıdakı məzmunda 203-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 203-1. | "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxs | 1833 |

1.8. 224-cü hissə ləğv edilsin;
1.9.aşağıdakı məzmunda 224-1-ci və 225-1-ci hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 224-1. | Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində "Milli İdman Tibb və Reabilitasiya Elmi-Praktiki İnstitutu" publik hüquqi şəxs | 1920 |
| 225-1. | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs | 1929 |

1.10. 226-cı hissə ləğv edilsin;
1.11. 246-cı hissəyə "yaradılması" sözündən sonra "və idarə edilməsi" sözləri əlavə edilsin;
1.12. aşağıdakı məzmunda 251-1 - 251-8-ci hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 251-1. | Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak | 1579 |
| 251-2. | Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər | 1580 |
| 251-3. | Xarici yardımlar | 1581 |
| 251-4. | Aqrar sığorta haqlarının dövlət büdcəsi hesabına ödənilməsi ilə bağlı xərclər | 1582 |
| 251-5. | Məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım | 1583 |
| 251-6. | Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması | 1584 |
| 251-7. | Xarici investisiya hesabına elektrik enerjisinin alqı-satqısı üzrə xüsusi ehtiyat hesabının formalaşdırılması | 1587 |
| 251-8. | Valyuta konvertasiyası | 1588 |

1.13. 284-cü hissədə "yardımlar və bununla" sözləri "yardımlarla" sözü ilə əvəz edilsin;
1.14. 294-cü hissə ləğv edilsin.

2. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 noyabr tarixli 333 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 11, maddə 1084) 6-cı hissəsində "4.6-4.8-ci" sözləri "4.7-ci" sözləri ilə və "4.24-cü" sözləri "4.23-cü" sözləri ilə əvəz edilsin.

3. Bu Qərar 2026-cı il 1 yanvar tarixindən tətbiq edilir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*



# Nümunəyə çevrilən inkişaf

## Azərbaycanın yüksəlişi dünya ölkələri üçün unikal örnəkdir

Müasir dünyamız geosiyasi qarşıdurmalar, iqtisadi çalxalanmalar, iqlim böhranları və beynəlxalq hüququn effektsizliyi kimi mürəkkəb çağırışlarla xarakterizə olunur. Qlobal gərginlik və qeyri-müəyyənlik şəraitində bir çox ölkə daxili sabitliyini qorumaqda çətinlik çəkir, ciddi siyasi-iqtisadi böhranlarla üzləşirlər. Azərbaycan isə hərtərəfli inkişaf dinamikası ilə dünya ictimaiyyətinin heyrət və maraqla izlədiyi bir fenomenə çevrilir.

Beynəlxalq miqyasda qəbul olunan və xüsusi tədqiqat mövzusu olan Azərbaycan modeli təbii resursların milli gücə, iqtisadi müstəqilliyə və ərazi suverenliyinə çevrilməsinin ən bariz praktiki nümunəsidir. Hər hansı bir ölkənin zəngin təbii resurslara malik olması həmin dövlətin inkişafı üçün böyük şans hesab olunsa da, beynəlxalq praktikada "Holland sindromu" kimi acı reallıqlar da mövcuddur. "Holland sindromu" dedikdə xammal ixracının artması ilə ölkə iqtisadiyyatının səmərəliliyinin azalması nəzərdə tutulur. Xammal sektorunda kəskin artım olduqda, yerli istehsal sənayesi dünya bazarında rəqabət qabiliyyətini itirir və əhəmiyyətli dərəcədə geri qalır. Nəticədə xammal tükənəndə və ya qiyməti düşəndə ölkə çətin iqtisadi vəziyyətə düşür.

Bir çox Afrika, Yaxın Şərq və Latın Amerikası ölkələri zəngin neft, qaz və ya qızıl yataqlarına sahib olsalar da, bu sərvətləri milli tərəqqiyə yönəldə bilməyiblər. Azərbaycanın son 30 ildə keçdiyi yol isə zəngin resursların dövləti gücləndirmək üçün necə istifadə edilməli olduğunu göstərir. Resursu zəngin olan ölkələrin uğursuzluğa düçar olmasının əsas səbəblərindən biri gəlirlərin qısamüddətli və plansız şəkildə xərclənməsi, qeyri-neft sektorunun tamamilə sıradan çıxması və xarici güclərin iqtisadi diktəsinə boyun əyilməsidir. Azərbaycan bu tələlərin heç birinə düşmədi. Çünki ölkəmiz təbii resurslarından əldə etdiyi vəsaitləri insan kapitalına, qeyri-neft sektorunun inkişafına sərf etdi.

Azərbaycanın unikal inkişaf paradiqması və resurslardan düzgün istifadə fəlsəfəsi Prezident İlham Əliyevin iyunun 1-də "Bakı Enerji Həftəsi"ində çıxışında dəqiq və sistemli şəkildə bəyan edilib. Dövlətimizin başçısı bu məqama toxunarkən vurğulayıb: "Hər bir ölkə torpağının təkində və ya dənizinin dibində olanı öz inkişafı üçün istifadə edir. Öz müstəqilliyinin əvvəlində Azərbaycanda məhz belə hal idi. Neft və qaz bizim üçün müstəqil ölkə kimi yaşamağın yeganə yolu oldu. Beləliklə, ölkələr neftin olub-olmaması ilə deyil, gəlirlərdən necə istifadə etdiklərinə görə mühakimə edilməlidir. Diqqət yetirilməlidir ki, öz ölkəsinin inkişafı, xalqının daha yaxşı yaşayış şəraitinin təminatı, "yaşıl gündəlik" məsələlərinə enerjinin istehsalından əldə edilən vəsaitləri onlar necə sərmayə kimi yatırırlar. Düşünürəm ki, Azərbaycan çox bariz nümunədir. Bütün bunlar göstərir ki, ölkənizi beynəlxalq sərmayələrə açıq edəndə, milli maraqlara əsaslanan müdrik siyasət aparanda siz uğur qazanırsınız".

Təbii resurslar özlüyündə mütləq uğur faktoru sayılmır. Əsas meyar məsuliyyətli və düzgün idarəetmədir. Azərbaycanın son illərdə neft-qaz gəlirlərini həm də "yaşıl enerji" layihələrinə, bərpaolunan enerji mənbələrinə yatırması ölkəmizin qlobal ekoloji məsuliyyətini və uzaqgörənliyini nümayiş etdirir. Azərbaycan ənənəvi resurslardan əldə etdiyi vəsaitlə gələcəyin texnologiyalarını və təmiz enerjisini maliyyələşdirir. Yəni bir çox dövlətin daxili ziddiyyətlər və xarici asılılıq səbəbindən idarə edə bilmədiyi təbii sərvətlər Azərbaycanda milli maraqlara söykənən müdrik və praqmatik siyasət sayəsində iqtisadi dayanıqlılığın hərəkətverici qüvvəsinə çevrilir. Bu kurs resursları tərəqqi modelinə çevirməyin qlobal miqyaslı ən uğurlu nümunəsidir.

Prezident İlham Əliyev vurğulayıb ki, müstəqil ölkə kimi yaşamaqda və irəliyə getməkdə bizim üçün yeganə yol sahib olduğumuz təbii sərvətlərdən istifadə idi: "Azərbaycan ilk ölkə idi ki, Xəzərin ehtiyatlarını beynəlxalq neft şirkətlərinə açıq etdi. Həmin vaxtdan etibarən çox hadisələr oldu. Əgər bu gün biz Azərbaycana nəzər salsaq, həmin transformasiyaya gəldikdə, bu sərvətlərdən necə istifadə etdiyimizə, onun yenidən sosial infrastruktura, təhsilə, səhiyyəyə, enerji sahəsinin inkişafına yatırdığımıza əsasən deyə bilərik ki, ölkələr necə inkişaf etməlidir və bu yol 1990-cı illərin əvvəlində üzləşdiyimiz eyni problemlərdən müəyyən dərəcədə əziyyət çəkən ölkələr üçün örnək olmalıdır".

Dövlətimizin başçısının bu sitatı Azərbaycanın son 30 ildə keçdiyi inkişaf yolu fəlsəfəsinin və ölkəmizin gələcək yüksəliş vizyonunun xülasəsidir. Uğurun rəmzi təbii resursların qısamüddətli istehlaka yox, uzunmüddətli milli inkişafa yönəldilməsidir.

Bu modelin beynəlxalq aləmdə nümunə kimi dəyərləndirilməsinin arxasında dayanan fundamental amillərdən biri də Azərbaycanın ərazi bütövlüyünü öz daxili gücü hesabına bərpa etməsidir. Otuz ilə yaxın davam edən işğal faktına, beynəlxalq vasitəçilərin səmərəsiz fəaliyyətinə və böyük güclərin münaqişəni dondurmaq cəhdlərinə baxmayaraq, Azərbaycan strateji hədəflərindən bir addım da geri çəkilmədi. BMT-nin kağız üzərində qalan qətnamələrinin tələblərinin yerinə yetirilməsini öz gücü ilə təmin edən Azərbaycan dünyada bənzər ərazi münaqişələrindən əziyyət çəkən ölkələr üçün real nümunəyə çevrildi.

Prezident İlham Əliyev çıxışında bu məqama da diqqət çəkib: "Biz demək olar ki, 30 il ərzində işğal altında qalmış torpaqlarımızı azad edən güclü ordu qurduq. Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik. Əlbəttə ki, müharibədə qələbə dedikdə, sadəcə, pul və hətta silahlar nəzərdə tutulmur. Söhbət döyüş ruhundan gedir. Lakin gəlin etiraf edək, ordunu qurmaq üçün pulumuz olmasaydı, yəqin ki, bu gün hələ də torpaqlarımız işğal altında olardı. Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər".

Dünyada resursu zəngin olub ondan düzgün istifadə edə bilməyən ölkələr var. Azərbaycan sübut etdi ki, əgər düzgün idarəetmə və güclü siyasi iradə olarsa, təbii sərvətlər ölkəni regionun liderinə və qlobal aktoruna çevirir. Azərbaycanın keçdiyi yol milli maraqlara söykənən müdrik siyasətlə dövlət suverenliyini necə əbədi və sarsılmaz etməyin real praktiki formuludur.

Azərbaycanın yürütdüyü praqmatik, uzaqgörən və kənar diktələri rədd edən müstəqil siyasəti beynəlxalq arenada böyük rəğbət və təqdir qazanır. İqtisadi gücü sosial rifahla, hərbi qüdrəti mənəvi-ideoloji birliklə və xarici siyasəti tam müstəqilliklə vəhdət halında birləşdirən bu kurs müasir dünyanın yeni güclü dövlət standartını müəyyən edir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Nazir Vilayət Eyvazov Qazaxda vətəndaş qəbulu, Ağstafada sıra baxışı keçirib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 3-də və 4-də Qazax rayonunda növbəti vətəndaş qəbulu keçirib.



Nazir əvvəlcə Qazax rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra polis şöbəsinin inzibati binasında Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 211 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov DİN DQ-nin Ağstafa rayonunda yerləşən hərbi hissəsində polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib. Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 238 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.



*"Azərbaycan"*

# AHİK sədri Beynəlxalq Əmək Konfransının 114-cü sessiyasında çıxış edib

İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Əmək Təşkilatına (BƏT) üzv ölkələrin hökumət nümayəndələrinin və sosial tərəfdaşlarının iştirakı ilə keçirilən Beynəlxalq Əmək Konfransının 114-cü sessiyası davam edir.




Sessiyada çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri Sahib Məmmədov bildirib ki, əmək hüquqlarının qorunması, əməyin mühafizəsi və layiqli əmək şəraitinin təmin edilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas prioritet istiqamətlərindəndir. Onun sözlərinə görə, bu siyasətin tərkib hissəsi kimi, ölkədə əmək hüquqlarının etibarlı müdafiəsinin təmin olunması məqsədilə sistemli və məqsədyönlü tədbirlər görülür, normativ-hüquqi baza ardıcıl şəkildə təkmilləşdirilir, beynəlxalq əmək standartlarının tətbiqi genişləndirilir.

Konfederasiya sədri qeyd edib ki, sözügedən prioritetlər həmkarlar ittifaqlarının fəaliyyət istiqamətləri ilə tam uzlaşır. O, AHİK-in əmək münasibətlərinin tənzimlənməsi, işçilərin sosial-iqtisadi hüquqlarının müdafiəsi və sosial tərəfdaşlığın inkişafı sahəsində həyata keçirdiyi fəaliyyət barədə iştirakçılara ətraflı məlumat verib.

Bildirilib ki, yeni imzalanmış 2026-2028-ci illər üçün Baş Kollektiv Saziş hökumət, işəgötürənlər və həmkarlar ittifaqları arasında sosial-iqtisadi və əmək münasibətləri sahəsində qarşılıqlı öhdəlikləri, razılaşdırılmış mövqeləri və birgə fəaliyyət istiqamətlərini müəyyən edən mühüm sənəddir.

Sahib Məmmədov vurğulayıb ki, AHİK-in Əməyin Mühafizəsi və Hüquqi Yardım Mərkəzi tərəfindən həm həmkarlar ittifaqları üzvlərinə, həm də üzv olmayan şəxslərə əmək hüquqları ilə bağlı ödənişsiz hüquqi məsləhət xidmətləri göstərilir. Eyni zamanda konfederasiya Azərbaycan ilə BƏT arasında imzalanmış "2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın icrasında fəal iştirak edir və əmək hüquqlarının müdafiəsi, sosial dialoqun inkişafı və layiqli əməyin təşviqi istiqamətində həyata keçirilən tədbirlərə töhfə verir.

Gender bərabərliyi sahəsində görülən işlərdən bəhs edən konfederasiya sədri qadınların idarəetmə və qərarqəbuletmə proseslərində iştirakının artırılması, iş yerlərində bərabər imkanların yaradılması və inklüziv əmək mühitinin təşviqi istiqamətində ardıcıl fəaliyyət həyata keçirildiyini diqqətə çatdırıb. O bildirib ki, AHİK-də bu istiqamət üzrə müvafiq struktur bölmənin yaradılması gender məsələlərinə institusional yanaşmanın gücləndirilməsinə və "Azərbaycan Respublikasında gender bərabərliyi üzrə Milli Fəaliyyət Planı"nın icrasına mühüm dəstək verir.

Çıxış zamanı sosial dialoqun inkişafı, Sosial-İqtisadi Məsələlər üzrə Milli Üçtərəfli Komissiya çərçivəsində əməkdaşlığın genişləndirilməsi, BƏT-in 187 saylı Konvensiyasının ratifikasiyası, eləcə də əmək qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində görülən işlər barədə də məlumat verilib. Sahib Məmmədov bu tədbirlərin əmək münasibətlərinin daha səmərəli tənzimlənməsinə, işçilərin hüquqlarının müdafiəsinin gücləndirilməsinə və sosial tərəfdaşlığın inkişafına xidmət etdiyini vurğulayıb.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

**5 İyun Su Təsərrüfatı və Meliorasiya İşçilərinin Peşə Bayramı Günüdür**

# Peşələri aydınlıqdır

## İndi dünyada suyun hər damlasının hesabı aparılır

Bakı və Abşeron yarımadası son 30 ildə sürətlə dəyişib, ilk növbədə əhalinin sayı xeyli artıb. Bu, təbii ki, su və kanalizasiya infrastrukturuna olan tələbatın kəskin artması ilə nəticələnib. Müstəqillik dövrü bu sahədə xüsusən Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü, sonralar isə Prezident İlham Əliyevin dəstəyi ilə bir sıra strateji layihələr həyata keçirilsə də, urbanizasiya, iqlim dəyişmələri və əhalinin sürətli artımı yeni problemləri önə çıxarıb.

Bu baxımdan Prezident İlham Əliyevin imzaladığı 2026-2035-ci illəri əhatə edən "Bakı şəhərinin su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı" şəhərin gələcək inkişaf strategiyasının mərkəzində dayanır. Proqram yalnız içməli suyun fasiləsiz verilməsini təmin etməklə kifayətlənmir, tullantı və yağış sularının idarə olunması, su itkilərinin azaldılması və dayanıqlı ekosistem prinsiplərinin tətbiqini qarşıya məqsəd qoyur.

Artıq dövlət proqramı çərçivəsində yüzlərlə kilometr yeni su və kanalizasiya xətti çəkilir, sutəmizləyici qurğular yenidən qurulur, müasir rəqəmsal və avtomatlaşdırılmış idarəetmə texnologiyaları olan SCADA sistemləri və smart sayğaclar tətbiq edilir. Bu yerdə xüsusi qeyd edək ki, "ağıllı şəhər" konsepsiyası suyun idarə olunmasında inqilabi addımdır. SCADA sistemləri və smart sayğaclar suyun mənbədən son istehlakçıya qədər hər damlasını izləməyə imkan verir. Hazırda 27 min kilometr su xətti, 11 min kilometr kanalizasiya infrastrukturu üzrə koordinat əsaslı məlumat bazası formalaşdırılır. Bu baza olmadan avtomatlaşdırılmış idarəetmə mümkün deyil. Smart sayğaclar vasitəsilə abonentlər su istifadəsini onlayn izləyəcək, fakturaları avtomatik ala biləcəklər.

Bəs bu böyük layihə gündəlik həyatımıza, şəhərin su təhlükəsizliyinə necə təsir edəcək? Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədri Zaur Mikayılov jurnalistlərə müsahibəsində məsələyə aydınlıq gətirib: "Hazırda mövcud vəziyyətdə suların böyük hissəsi bir mərkəzə - kollektor sisteminə yönəlir. Yeni proqram çərçivəsində isə bu sistem daha səmərəli şəkildə bölüşdürüləcək. Nəticədə həm vətəndaşların içməli suya əlçatanlığı, həm kanalizasiya xidmətlərinə çıxışı yaxşılaşacaq, həm də bu cür intensiv yağışların yaratdığı fəsadların daha az olması və suların daha operativ şəkildə kənarlaşdırılması mümkün olacaq".

Bəhs etdiyimiz dövlət proqramı yalnız içməli suyun fasiləsiz verilməsini hədəfləmir. O, həm də su itkisi risklərinin azaldılmasını, ekoloji dayanıqlılığın təmin olunmasını nəzərdə tutur. Artıq bu proqram çərçivəsində 12 istiqamət üzrə təxminən 345 kilometr uzunluğunda yeni kanalizasiya və yağış kollektorlarının tikintisi planlaşdırılıb. Həmin layihələrdən 7-sinin icrasına başlanılıb. Hər bir yeni kollektor xətti, nasos stansiyası şəhərin damarlarına həyat verir.

Su itkilərinin azaldılması isə proqramın ən vacib istiqamətlərindən biridir. Hazırda ölkədə su itkilərinin böyük hissəsi fiziki sızmalar və kommersiya itkilərindən ibarətdir. Bakıda magistral xətlərin, nasos stansiyalarının və son istehlakçıya qədər olan şəbəkələrin monitorinqi üzrə müasir texnologiyalar tətbiq olunur. Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birgə hazırlanmış strategiya su itkisinə qarşı səmərəli mübarizə planlarını müəyyən edir. Alternativ su mənbələrinin istifadəsi də mühüm vəzifələrdəndir. Duzsuzlaşdırma zavodları və tullantı sularının təkrar emalı paytaxtın su balansını gücləndirəcək. Məsələn, duzsuzlaşdırma layihəsi çərçivəsində hər il təxminən 100 milyon kubmetr içməli suyun istehsalı nəzərdə tutulur. Hövsan Təmizləyici Qurğular Kompleksinin yenidən qurulması nəticəsində tullantı sularının kənd təsərrüfatı və sənayedə istifadəsi mümkün olacaq. Beləcə, hər bir damla su təkrar "doğulub" şəhərin normal həyatını təmin edəcək.

Bütün bu layihələrin bir məqsədi var: Bakı və Abşeron yarımadasında müasir, dayanıqlı və iqlim dəyişikliklərinə uyğun su infrastrukturu yaratmaq. Dövlət proqramı indiki tələbatı qarşılamaqla yanaşı, gələcək nəsillərin də təhlükəsiz və dayanıqlı su təminatını hədəfləyir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*


Azərbaycanın
next
XRG
inkişaf mərhələsinə dəstək
Əbu-Dabi ilə Bakının tərəfdaşlığı ortaq dəyərləri əks etdirir.
XRG dayanıqlı kapital və ekspertiza təqdim edərək Azərbaycanın baxışına və təbii üstünlüklərinə investisiya yatırır.
ətraflı məlumat üçün: xrg.com
XRG
Energy potential. Unlocked.

# Yeni dövlət proqramı kənd təsərrüfatının inkişafını sürətləndirəcək

**Azərbaycan iqtisadiyyatının əsas sahələrindən sayılan kənd təsərrüfatının inkişafına göstərilən qayğı və diqqət daimidir və bu, bilavasitə dövrün tələbidir. Çünki aqrar sektor çoxsaylı daimi iş yeri, əhalinin kənddə məskunlaşması, ərzaq bolluğu yaradılması, insanların maddi rifahının yaxşılaşması deməkdir. Ölkə əhalisinin yarıya qədərinin kənd təsərrüfatı ilə məşğul olduğunu, kənddə yaşadığını nəzərə alsaq, bu sahənin inkişaf etdirilməsinin vacibliyi bir daha aydın olar.**



**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir RZAYEV** "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, Ulu Öndər Heydər Əliyev hər zaman kənd təsərrüfatının inkişafına qayğı ilə yanaşmış, əsaslı aqrar islahatlar həyata keçirmiş, torpaqları öz sahiblərinə verməklə bazar təsərrüfatçılığı sisteminə adekvat aqrar strukturun formalaşmasına yol açmışdır. Bütün bunlar kənd təsərrüfatı istehsalını böhrandan çıxarmış, aqrar sektorun uzunmüddətli dövr üçün dinamik inkişafına zəmin yaratmışdır. "Torpaq vergisi haqqında", "Torpaq bazarı haqqında" qanunlar, Torpaq Məcəlləsi və bir çox qanunvericilik aktı bilavasitə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanıb, qəbul edilib və bugünkü inkişafımız üçün möhkəm hüquqi bünövrə yaradıb.

T.Rzayev vurğulayıb ki, cənab İlham Əliyev də prezident seçildiyi ilk gündən kənd təsərrüfatını önəmli bir sahə kimi qiymətləndirib, aqrar islahatların dərinləşdirilməsi, çoxsahəli dövlət dəstəyi sisteminin yaradılması, mühüm proqram və layihələrin qəbul edilməsi, ənənəvi sahələrin inkişafı üzrə vacib olan tədbirlər həyata keçirib. Ölkə rəhbərinin "Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" 23 oktyabr 2004-cü il tarixli sərəncamı aqrar bölmənin idarəedilməsində pərakəndəliyi aradan qaldırmaq, bu sahənin davamlı inkişafını təmin edən idarəetmə sistemini yaratmaq məqsədilə imzalanıb. Sərəncama əsasən, Kənd Təsərrüfatı Nazirliyi yenidən təşkil edilərək yanında müvafiq xidmətlərin və agentliklərin yaradılması idarəetmədə səmərəliliyin və operativliyin təmin olunmasına istiqamətləndirilib.

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyev tərəfindən təsdiqlənən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları kənd təsərrüfatının yüksəlişinə də öz təsirini göstərib. Dövlət başçısının "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması" haqqında fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın müəyyənləşdirilməsi, aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını təmin etmək məqsədilə Aqrar Sığorta Fondunun yaradılması bu sahədə əldə olunmuş nəticələrdə böyük rol oynayıb.

Komitə sədri qeyd edib ki, Prezident İlham Əliyevin ölkənin kənd təsərrüfatına göstərdiyi qayğı və diqqət sonsuz, əvəzsizdir: "Ölkə rəhbərinin kənd təsərrüfatı məsələlərinə həsr edilən müşavirədəki çıxışı, sahənin vəziyyəti, əldə edilən nəticələr, çatışmazlıqlar, gələcək perspektivlər barədə qarşıya qoyduğu vəzifələr, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" bunun bariz ifadəsidir. Prezidentin çıxışında ifadə olunan məsələlər və proqramda əksini tapan vəzifələr bilavasitə kənd təsərrüfatının inkişafına, ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, regional tərəqqinin sürətləndirilməsinə, davamlı və dayanıqlı milli iqtisadiyyatın gücləndirilməsinə, ən başlıcası insanların rifah halının yaxşılaşdırılmasına xidmət edir. Dövlət proqramı bir neçə ili əhatə etsə də, ümumiyyətlə, gələcək inkişafa hesablanan strateji əhəmiyyətli bir sənəddir. Cənab İlham Əliyev müşavirədə bildirdi ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının həyata keçirilməsi regionları canlandırdı, məşğulluğu artırdı və böyük infrastruktur layihələri icra edildi. Bir sözlə, son illəri bölgələrin və kənd təsərrüfatının inkişafı çox sürətlə getmişdir. Bunun nəticəsində bir çox istiqamət üzrə kənd təsərrüfatı məhsullarının istehsalında böyük artım olmuşdur. Ölkə rəhbəri sosial layihələrin uğurlu tətbiqini, qaz, su təchizatının yaxşılaşdırılmasını, yolların çəkilişini, kənd təsərrüfatının mühüm sahələrində bir çox proqramın həyata keçirilməsini, subsidiya mexanizminin tətbiqini nəzərə çatdırmaqla həm də əlavə etdi: "Ancaq buna baxmayaraq, son vaxtlar kənd təsərrüfatı istehsalında dinamika məni qane etmir". Yeni dövlət proqramı aqrar sektorun iqtisadiyyatda rolunun daha da artırılmasına xidmət etməklə, ərzaq təhlükəsizliyinin gücləndirilməsini, məşğulluğun daha yüksəkgəlirli və məhsuldar fəaliyyət sahələrinə yönəldilməsini, kənd təsərrüfatının yüksək dəyər yaradan ixracyönümlü iqtisadi platformaya çevrilməsini, əhalinin kənddə məskunlaşdırılmasının təmin edilməsini əsas məqsəd kimi hədəfləyir".

T.Rzayev bildirib ki, müasir texnologiyanın, qabaqcıl təcrübənin, elmin nailiyyətlərinin təsərrüfata tətbiqi və məhsuldarlığın artırılmasının bitkiçilikdə bir hədəf kimi qarşıya qoyulması təbiidir. Buğda və pambıq üzrə məhsuldarlığın 50 sentnerə çatdırılması proqramın məhsuldarlıq hədəfi olduğu kimi, müasir suvarma sistemləri tətbiq olunan sahələrin 130 min hektardan 300 min hektara çatdırılması, intensiv meyvə bağlarının 50 min hektardan 70 min hektara yüksəlməsi, istixana komplekslərinin 1500 hektardan 2000 hektaradək genişləndirilməsi məhdud torpaq və su resurslarından səmərəli istifadə etməklə yüksək iqtisadi nəticə qazanılmasına hesablanıb. Su təchizatı təmin edilmədən kənd təsərrüfatının inkişafı mümkün deyil. Azərbaycanın su ehtiyatları azdır və yay aylarında əkin sahələri su sarıdan ciddi çətinliklərlə qarşılaşır. Yüz hektarlarla sahə susuzluqdan məhv olur və ya məhsuldarlığını itirir. Müşavirədə xatırladıldığı kimi, artıq 10 su anbarının yenidən qurulması layihəsi icra olunur. Qarabağ və Şirvan kanalları işə düşəndən sonra 200-300 min hektar torpağa su veriləcək. İndi Köndələnçay su anbarının sayı üçə çatdırılıb. Xaçınçay, Suqovuşan, Sərsəng, Zabuxçay su anbarları yenidən qurulur. Bərgüşad və Həkəri su anbarlarının tikintisi işləri gedir. Prezident İlham Əliyev müşavirədə bildirdi ki, bununla bərabər bu torpaqlarda müasir şəbəkə qurulmalıdır və bu da dövlət proqramında nəzərdə tutulur. Müasir suvarma sistemlərinin qurulması isə həm suya qənaətin, həm də hər hektarda məhsuldarlığı artırmağın, sahibkarın gəlirinin yüksəlməsinin, normal fəaliyyətinin təmin edilməsidir.

Komitə sədri qeyd edib ki, ölkə rəhbərinin çıxışında taxılçılığın, xüsusilə ərzaqlıq buğda istehsalının artırılmasına, pambıqçılığın, balıqçılığın, heyvandarlığın inkişafına xüsusi önəm verilir və qeyd edilir ki, bu, ərzaq təhlükəsizliyinin təmin edilməsi, ixracın artırılması və yüksək gəlir götürülməsi baxımından çox əhəmiyyətlidir.

Deputat diqqətə çatdırıb ki, dövlət proqramında aqrar subsidiyaların və dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsinə xüsusi önəm verilib: "Keçən il aqrar sahəyə 285 milyon manat subsidiya və fiziki-hüquqi şəxslərə 112 milyon manat güzəştli kredit verilib ki, bunun əsas hissəsi bitkiçiliyə yönəldilib. Heyvandarlıqda dövlət dəstəyinin payı cəmi 6 faiz təşkil edir ki, bu da qənaətləndirici hesab edilmir. Subsidiyalar daha vacib və gəlirli olan sahələrə ayrılmalıdır. Prezident çıxışında subsidiya mexanizminin çevik olmasının zəruriliyinə diqqəti cəlb edərək göstərir ki, subsidiyalar veriləndə daxili tələbatın bağlanması və ixrac imkanlarının genişləndirilməsi nəzərə alınmalıdır. Bununla bərabər, aqrar sahəyə sərmayə qoyuluşu artırılmalıdır. 2026-2030-cu illərdə aqrar sektora 6 milyard manat vəsaitin ayrılması, 3 milyard manatdan çox özəl investisiyanın cəlb edilməsi nəzərdə tutulur ki, bu da sahənin maliyyə dayanıqlılığına böyük köməkdir. Bu, özəl sektorun fəaliyyətindən və xarici investorların təşəbbüsündən çox asılıdır. Dövlətimizin başçısı xatırladır ki, özəl sektor nümayəndələri də dövlət proqramının icrasında xüsusi rol oynamalıdırlar. Eyni zamanda biz xarici investorları da həm məlumatlandırmalıyıq, həm də təşviq etməliyik".

Komitə sədri vurğulayıb ki, ölkədə yaradılmış əlverişli şərait, beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, aqroparkların, aqrar-sənaye zonalarının, emal müəssisələrinin, logistika mərkəzlərinin genişləndirilməsi, su, yol, enerji, sığorta, subsidiya, rəqəmsal idarəetmə infrastrukturunun formalaşdırılması özəl sektora, xarici investorlara öz fəaliyyətlərini qurmağa lazimi imkanlar yaradır. Kənd təsərrüfatının inkişafı həm də ixracın artırılmasından, aqrar ticarətin genişləndirilməsindən, daha gəlirli bazarlara çıxışdan, dəyər gətirən keyfiyyətli məhsul istehsalından və onun bazarının müəyyənləşdirilməsindən keçir. 2021-2025-ci illərdə aqrar ixracın 1.1 milyard dollardan 1.5 milyard dollara çatması Azərbaycanın aqrar ticarətdə irəli getdiyini sübut edir. Son illərdə xurma, fındıq, pambıq, meyvəçilik, tərəvəzçilik, şərabçılıq kimi sahələrdə ixrac potensialı yüksəlib, xarici ölkələrə yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları göndərməklə dövlət ticarətdə öz mövqeyini xeyli möhkəmləndirib. Azərbaycan xaricdən 3.1 milyard dollar həcmində aqrar məhsullar idxal edib ki, bu da yüksək göstəricidir. Dövlət proqramı yalnız ixrac potensialını artırmağı, ticarətdə daha irəli getməyi nəzərdə tutmur, həm də strateji məhsullar üzrə idxalın davamlı şəkildə azaldılmasını, daxili bazarın, sahibkarların mənafeyinin qorunmasını vacib vəzifə kimi qarşıya qoyur. Bu gün ərzaq təhlükəsizliyi milli təhlükəsizliyin başlıca amili hesab olunur. Aqrar sektor ənənəvi istehsal sahəsi funksiyasını iqtisadi dayanıqlılıq, regional inkişaf, geoiqtisadi mövqe, qlobal dəyər və imkan funksiyasına çevirməklə, enerji təhlükəsizliyi qədər strateji əhəmiyyət kəsb etməyə başlayıb. "Azərbaycanın yüksək kənd təsərrüfatı potensialı, xüsusilə işğaldan azad olunmuş ərazilərdə görülən möhtəşəm işlər, münbit torpaqların əkin dövriyyəsinə daxil edilməsi və həmin ərazilərdə məskunlaşma prosesinin uğurla aparılması, ölkənin enerji, nəqliyyat və logistika sahələrində əldə etdiyi üstünlüklər iqtisadi nəticələrimizi artırmaq, neftdən asılılığı aradan qaldırmaq üçün yeni yollar açır, imkanları genişləndirir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən mühüm tədbirlər, Orta dəhlizin inkişafı, Zəngəzur dəhlizinin (TRIIP) açılmasına göstərilən səylər, çox mühüm infrastruktur layihələrinin reallaşdırılması ölkənin kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət daşımaqla, uzunmüddətli perspektivlərə istiqamətləndirilib. Təqdim olunan dövlət proqramı kənd təsərrüfatı üçün adi bir fəaliyyət planı, yaxud hansısa bir sahəni istiqamətləndirmək üçün sadə iş proqramı deyil. Prezidentimizin bildirdiyi kimi, bundan əvvəl qəbul edilmiş proqramlar və qərarlar böyük dönüşə səbəb olub və əldə olunanlar deməyə əsas verir ki, yeni dövlət proqramı da yeni uğurlara səbəb olacaqdır", - deyə T.Rzayev əlavə edib.

Deputat qeyd edib ki, aqrar sektorun hüquqi bazasının möhkəmləndirilməsi baxımından Milli Məclis tərəfindən kənd təsərrüfatının bütün sahələrini özündə ehtiva edən mükəmməl qanunlar hazırlanıb, reallıqlara əsaslanaraq bir çox qanuna əlavə və dəyişikliklər edilib. Qəbul olunmuş sənədlər bilavasitə aqrar sektoru intensiv yolla, elmin nailiyyətləri, zamanın tələbləri əsasında inkişaf etdirməyə, ərzaq təhlükəsizliyinin təminatına, keyfiyyətli və rəqabətədavamlı məhsul yetişdirilməsi üçün səylərin birləşdirilməsinə, torpaqların məhsuldarlığının yüksəldilməsinə, məhsul itkisinin qarşısının alınmasına, kənddə həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilib.

Komitə sədri deyib ki, Prezident İlham Əliyevin kənd təsərrüfatına həsr olunmuş müşavirədəki çıxışında səsləndirilən fikirlər, qəbul olunmuş dövlət proqramı Milli Məclisin, deputatların qarşısında da yeni vəzifələr qoyur və yeni qanunvericilik aktlarının hazırlanmasını, bu mühüm sənəddə əksini tapan qlobal məsələlərin təşviqini, geniş izah olunmasını, işıqlandırılmasını, onun əhəmiyyətini və mahiyyətini insanlara ətraflı çatdırmağı zərurətə çevirir. Bu proqram özündə uzunmüddətli məqsədləri, hədəfləri, vəziyyətdən çıxış yollarını, daha böyük uğurlara çatmağın istiqamətlərini birləşdirməklə, iqtisadiyyatda kənd təsərrüfatının yerinin və rolunun möhkəmləndirilməsinə hesablanıb. Məqsəd ərzaq təhlükəsizliyini səmərəli təmin etmək, ixracyönümlü, gəlir gətirən istehsala malik olmaq, məşğulluğa önəm vermək, dayanıqlı və davamlı milli iqtisadiyyatı durmadan inkişaf etdirməkdir. Bu da milli təhlükəsizliyimizin, insanların rifahının təmin olunması üçün vacib və əhəmiyyətlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Böyük qayıdışın hüquqi təməli: dayanıqlı məskunlaşmaya aparan yol

## Dövlət sosial siyasətini yeni mərhələnin tələblərinə uyğun qurur

Ermənistanın işğalçılıq siyasəti nəticəsində yüz minlərlə soydaşımız doğma yurdundan didərgin düşərək uzun illər məcburi köçkün həyatı yaşamışdır. İnsanlar evləri ilə yanaşı, illərlə formalaşmış sosial mühitlərini, təsərrüfatlarını, məşğulluq imkanlarını və həyat tərzlərini də itirmişlər. Buna baxmayaraq, dövlətimiz həmin insanların taleyini heç vaxt diqqətdən kənarda qoymamış, onların sosial müdafiəsini fəaliyyətinin əsas prioritetlərindən birinə çevirmişdir.



Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan sosial müdafiə siyasəti Prezident İlham Əliyevin rəhbərliyi dövründə genişləndirilərək sistemli xarakter aldı. Təsadüfi deyil ki, 2004-2019-cu illər ərzində məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı dövlətimizin başçısı tərəfindən 75 fərman və sərəncam imzalandı, Milli Məclis tərəfindən 11 qanun qəbul edildi, Nazirlər Kabineti isə 224 qərar və sərəncam təsdiqlədi. Bütün bunlar dövlətin məcburi köçkün probleminə uzunmüddətli və strateji yanaşmasının göstəricisidir.

İlkin mərhələdə həyata keçirilən mühüm layihələrdən biri məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması idi. Bu istiqamətdə ölkənin müxtəlif bölgələrində 121 yeni qəsəbə və yaşayış kompleksi tikilərək istifadəyə verildi. Nəticədə 62 mindən çox ailənin, yəni 300 mindən artıq vətəndaşın yaşayış şəraiti köklü şəkildə yaxşılaşdırıldı. Çadır düşərgələrinin ləğvi, vaqon şəhərciklərində və yararsız tikililərdə yaşayan insanların yeni ev və mənzillərlə təmin olunması dövlətimizin sosial siyasətinin mühüm nailiyyətlərindən biri kimi tarixə düşdü. 2007-ci ildə bütün çadır düşərgələrinin və 2016-cı ildə sonuncu "fin" tipli qəsəbənin ləğv edilməsi məcburi köçkünlərin həyatında yeni mərhələnin başlanğıcı demək idi.

Amma dövlət qayğısı yalnız ev və mənzil təminatı ilə məhdudlaşmadı. Məcburi köçkün ailələrinə vahid aylıq müavinət ödənildi, təhsil və vergi güzəştləri tətbiq olundu, ünvanlı sosial yardım proqramları həyata keçirildi, minlərlə insan məşğulluq layihələrinə cəlb edildi. Əmək qabiliyyətli məcburi köçkünlərin 161 min nəfəri daimi işlə, 200 min nəfəri isə müxtəlif dövrlərdə müvəqqəti işlə təmin olundu. Sahibkarlığın inkişafı məqsədilə minlərlə ailəyə güzəştli kreditlər ayrıldı. Bütün bunların əvəzində məcburi köçkünlər arasında yoxsulluğun səviyyəsi təxminən 8 faizə qədər azaldı.

Bu siyasətin mühüm istiqamətlərindən biri də təhsil sahəsi idi. Dövlət məcburi köçkün ailələrinin övladlarının təhsil imkanlarının məhdudlaşmasına imkan vermədi. Minlərlə gənc ali təhsil almaq imkanı əldə etdi. Hazırda ali məktəblərə qəbul olunmuş minlərlə tələbənin təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Bu isə insan kapitalının formalaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

44 günlük Vətən müharibəsində qazanılan qələbə isə ölkəmizin qarşısında tamamilə yeni reallıq yaratdı. Artıq dövlətin əsas vəzifəsi məcburi köçkünlük şəraitini idarə etmək deyil, insanların doğma torpaqlarına qayıdışını və həmin torpaqlarda dayanıqlı həyat qurmasını təmin etmək idi. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması, 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"nın təsdiq olunması bu yeni mərhələnin hüquqi və strateji əsaslarını müəyyənləşdirdi.

Son 4 il ərzində "Böyük qayıdış" proqramının həyata keçirilməsi məqsədi ilə dövlət büdcəsindən 28 milyard manata yaxın vəsait ayrılıb. Bu vəsait hesabına Qarabağ və Şərqi Zəngəzurda onlarca yaşayış məntəqəsi yenidən qurulub, müasir infrastruktur yaradılıb, yollar, məktəblər, xəstəxanalar və sosial obyektlər tikilib. Bu gün artıq 85 minə yaxın vətəndaş həmin ərazilərdə yaşayır, çalışır və təhsil alır.

Məhz bu mərhələdə keçmiş məcburi köçkünlərin doğma yurdlarında dayanıqlı məskunlaşmasının hüquqi əsaslarının daha da təkmilləşdirilməsi zərurəti meydana çıxdı. Milli Məclisin komitəsində müzakirə olunan qanun layihələri də bu ehtiyacdan irəli gəlirdi.

Məlumdur ki, qayıdış prosesinin mühüm istiqamətlərindən biri keçmiş məcburi köçkünlərin konstitusion mülkiyyət hüquqlarının təmin edilməsidir. Uzun illər insanlar öz evlərindən və əmlaklarından məhrum qalmışlar. Yeni hüquqi mexanizmlər onların yalnız yaşayış sahələri ilə təmin edilməsini deyil, həmin yaşayış sahələrinin tamhüquqlu mülkiyyətçisinə çevrilməsini nəzərdə tutur. Bu hüquqi yenilik tarixi ədalətin bərpası, insan hüquqlarının təmin olunması və vətəndaşların doğma torpaqlara bağlılığının möhkəmləndirilməsi deməkdir. İnsan öz evinin sahibi olduqda həmin ərazinin inkişafında daha fəal iştirak edir, gələcəyini həmin torpaqla bağlayır və dayanıqlı yaşayış modeli formalaşır.

Milli Məclisdə müzakirə edilən dəyişikliklər Mənzil Məcəlləsini, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunları əhatə edir. Bu dəyişikliklər məcburi köçkünlük dövründən Böyük qayıdış mərhələsinə keçidin hüquqi çərçivəsini müəyyənləşdirir. Məqsəd uzun illər işğal şəraitində formalaşmış hüquqi mexanizmləri yeni reallıqlara uyğunlaşdırmaqdır. Dövlət keçid dövründə sosial müdafiə tədbirlərinin davam etdirilməsini də təmin edir. Bu yanaşma onu göstərir ki, dövlət sosial öhdəliklərindən imtina etmir, əksinə, onları yeni mərhələnin tələblərinə uyğunlaşdırır. Əgər əvvəlki dövrdə əsas məqsəd məcburi köçkünlərin sosial müdafiəsini təmin etmək idisə, bu gün prioritet onların doğma torpaqlarda iqtisadi və ictimai həyata tam inteqrasiyasıdır.

Qarabağ və Şərqi Zəngəzurda yaradılan yeni yaşayış məntəqələri yalnız evlərdən ibarət deyil. Burada məktəblər, uşaq bağçaları, tibb müəssisələri, xidmət mərkəzləri, rəqəmsal infrastruktur və yeni iş yerləri yaradılır. Məqsəd insanların rahat, təhlükəsiz və perspektivli həyatının təmin edilməsidir. Məşğulluq proqramları, sahibkarlığın inkişafı, özünüməşğulluq layihələri və peşə hazırlığı kursları insanların iqtisadi fəallığını artırır. Beləliklə, sosial yardım alan vətəndaş modeli tədricən iqtisadi inkişafın fəal iştirakçısı modelinə çevrilir.

"Böyük qayıdış" proqramı Azərbaycanın həyata keçirdiyi ən böyük sosial və iqtisadi transformasiya layihəsidir. Bu proqram insanların öz evlərinə qayıdışı ilə yanaşı, bütövlükdə Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasını da nəzərdə tutur. Yeni yollar, beynəlxalq hava limanları, enerji layihələri, sənaye zonaları, "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyaları regionun gələcək inkişafının əsasını təşkil edir. Qarabağ və Şərqi Zəngəzur yaxın illərdə ölkənin yeni iqtisadi inkişaf mərkəzlərindən birinə çevriləcək. Eyni zamanda Böyük qayıdış milli həmrəyliyin, dövlət-vətəndaş birliyinin və tarixi ədalətin bərpasının parlaq nümunəsi kimi tarixə düşəcək. Uzun illər doğma torpaqlarına qovuşmaq arzusu ilə yaşayan insanlar artıq öz yurdlarında yeni həyat qururlar.

Bu gün həyata keçirilən hüquqi islahatlar, qəbul olunan yeni qanunlar və reallaşdırılan dövlət proqramları göstərir ki, Azərbaycan məcburi köçkünlük dövrünü geridə qoyaraq dayanıqlı məskunlaşma və inkişaf mərhələsinə daxil olub. Böyük qayıdış təkcə insanların doğma torpaqlarına dönüşü deyil, həm də müasir Azərbaycanın ən böyük sosial, iqtisadi və mənəvi qələbələrindən biridir. Bu proses gələcək nəsillərə güclü dövlətin və milli birliyin möhtəşəm nəticəsi kimi ötürüləcək.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Laşa AMAŞUKELİ: "BTQ-nin modernləşdirilməsinin başa çatması Gürcüstan və Azərbaycan üçün mühüm mərhələdir"

"Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun modernləşdirilməsinin başa çatması həm Gürcüstan, həm də Azərbaycan üçün mühüm mərhələdir və Orta dəhlizin rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə gücləndirir. Modernləşdirilmiş dəmir yolunun ötürmə qabiliyyətinin 2030-cu ilədək ildə təxminən 5 milyon tona çatacağı gözlənilir. Bu isə regional ticarət və tranzit üçün yeni imkanlar açacaq".



Bu fikirləri AZƏRTAC-a açıqlamasında BTQ dəmir yolu xəttinin genişmiqyaslı modernləşdirmədən sonra yenidən istismara verilməsini şərh edən Gürcüstanın "Royal Express" nəqliyyat şirkətinin baş direktorunun müavini, ekspert Laşa Amaşukeli səsləndirib.

"Dünya Bankının proqnozlarına əsasən, 2030-cu ilədək Orta dəhliz ölkələri arasında ticarətin həcmi təxminən 37, dəhliz ölkələri ilə Avropa İttifaqı arasında ticarətin həcmi isə təxminən 28 faiz arta bilər. Belə artımın ticarət dövriyyəsinin genişlənməsi, tranzitdən əldə olunan gəlirlərin və investisiyaların çoxalması, yeni iş yerlərinin yaradılması, həmçinin logistika və sənaye sahələrinin inkişafı hesabına həm Gürcüstan, həm də Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərəcəyi gözlənilir", - deyə o bildirib.

Ekspertin sözlərinə görə, növbəti prioritet fasiləsiz və etibarlı nəqliyyat ekosistemi yaratmaq üçün dəmir yollarının, limanların, gömrük xidmətlərinin, logistika mərkəzlərinin və rəqəmsal sistemlərin daha sıx inteqrasiyasına nail olmaqdır.

"Gürcüstan və Azərbaycan bu istiqamətlərdə birgə fəaliyyətini davam etdirsə, Orta dəhliz Avropa ilə Asiya arasında ən mühüm ticarət bağlantılarından birinə çevriləcək. Hər iki ölkə dəhlizin inkişafından ən çox fayda götürən dövlətlər sırasında olacaq və Mərkəzi Asiyanı, Qafqazı, Qara dəniz regionunu və Avropanı birləşdirən qovşaq kimi strateji əhəmiyyətini daha da gücləndirəcək", - deyə Laşa Amaşukeli diqqətə çatdırıb.

**Müasir dünya nizamının ciddi təlatümlərlə və geosiyasi gərginliklərlə üzləşdiyi bir dövrdə Azərbaycan özünün müstəqil, qətiyyətli və milli maraqlara əsaslanan xarici siyasət kursunu inamla davam etdirir. Bu siyasətin mühüm istiqamətlərindən biri olan Azərbaycan-Avropa İttifaqı (Aİ) münasibətləri inkişaf yolu keçərək bu gün tamamilə yeni, strateji mərhələyə qədəm qoyur.**



# Azərbaycan-Avropa İttifaqı münasibətləri yeni mərhələyə keçir

## 2026-2030-cu illəri əhatə edən Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri sənədinin layihəsi ilkin olaraq razılaşdırılıb

Münasibətlərdəki bu yeni strateji reallıq elə bu günlərdə Bakıda keçirilən vacib görüşlə daha bir real nəticəsini verib. Belə ki, 2-3 iyun 2026-cı ildə Bakı şəhərində Azərbaycan ilə Avropa İttifaqının nümayəndə heyətləri arasında yeni hərtərəfli saziş layihəsi üzrə həlledici danışıqlar aparılıb. Konstruktiv ruhda keçən müzakirələrin mühüm nəticəsi olaraq, 2026-2030-cu illəri əhatə edən Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri sənədinin layihəsi ilkin olaraq razılaşdırılıb.

Yeni hərtərəfli saziş üzrə aparılan danışıqlar çərçivəsində Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının nümayəndələri Avropa İttifaqından olan həmkarları ilə birlikdə saziş layihəsinin müxtəlif bölmələri üzrə məhsuldar müzakirələr apardılar. Bir sıra istiqamətlərdə irəliləyişlər əldə edilib və danışıqların növbəti mərhələləri ilə bağlı planlar müəyyən edilib.

Görüşün yekununda tərəflər yeni ikitərəfli saziş layihəsi üzrə danışıqların həm onlayn, həm də fiziki görüşlər formatında intensiv şəkildə davam etdirilməsi barədə tam razılığa gəliblər.

### Səmimi və şəffaf fəaliyyət

Rəsmi Bakının beynəlxalq arenada nümayiş etdirdiyi etibarlı tərəfdaş imici və qətiyyətli mövqeyi Brüsseli regiondakı köhnəlmiş stereotiplərdən əl çəkməyə və yeni reallıqları qəbul etməyə vadar edir.

Azərbaycan hər zaman tərəfdaşlıq münasibətlərində səmimi və şəffaf fəaliyyət prinsiplərinə sadiq qalsa da, bunu da demək lazımdır ki, ötən illər ərzində Avropa İttifaqı daxilindəki müəyyən dairələrin ölkəmizin uğurlarına qarşı qeyri-konstruktiv və ikili-standartlı mövqe tutduğunun şahidi olmuşuq. Xüsusilə Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsindən sonra Ermənistanla münasibətlərin normallaşdırılması prosesində Aİ-nin bəzi addımları regional sülhə töhfə vermək məqsədindən uzaq olub.

Bu qəbuledilməz fəaliyyətin ən bariz nümunəsi Ermənistan-Azərbaycan sərhədinin Ermənistan tərəfində yerləşdirilən Aİ-nin müşahidəçi missiyasıdır. Adı "mülki" olsa da, mahiyyətcə kəşfiyyat alətinə çevrilən bu qrup "binokl diplomatiyası" həyata keçirərək regionda gərginlik yaratmaqdan başqa işə yaramır.

O da reallıqdır ki, Brüsselin bu cür qərəzli və tarazlığı pozan addımları ikitərəfli münasibətlərə kölgə salsa da, Bakının iradəsinə və qətiyyətinə heç zaman təsir edə bilməyib.

Qərb tərəfindən tətbiq edilən bütün siyasi təzyiqlərə və qeyri-obyektiv yanaşmalara rəğmən, Azərbaycan öz milli maraqlarını qətiyyətlə qoruyub. Rəsmi Bakı heç bir kənar təsirə boyun əyməyərək, Cənubi Qafqazda əsas güc olduğunu və beynəlxalq ədalətə əsaslanan siyasət yürütdüyünü həyata keçirdiyi əməli addımlarla sübut edir.

### Etibarlı tərəfdaş

Zaman keçdikcə dərinləşən qlobal siyasi-iqtisadi böhranlar və xüsusilə Qərbin iqtisadi təhlükəsizlik qayğıları Avropa İttifaqını yürütdüyü yanlış siyasətdən əl çəkməyə məcbur etdi. Brüssel anladı ki, regionun əsas logistik və enerji ünvanı məhz Azərbaycandır.

Bu gün Azərbaycan regional və qlobal səviyyədə etibarlı enerji tərəfdaşı kimi çıxış edir. Ölkəmizin ən böyük üstünlüklərindən biri odur ki, heç vaxt öz zəngin enerji resurslarından digər dövlətlərə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə etməyib. Hazırda Azərbaycan qazını idxal edən 16 ölkədən 10-nun məhz Avropa İttifaqının üzvü olması bu reallığın daha bir təsdiqidir.

Eyni zamanda beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan Avropa ilə Asiyanı birləşdirən Orta dəhlizin aparıcı qüvvəsidir. Yüklərin sürətli və təhlükəsiz daşınması, həmçinin logistik şaxələndirmə baxımından Aİ-nin Azərbaycana olan ehtiyacı qaçılmazdır.

Bu reallıq mayın 5-də Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasın Bakıya səfəri zamanı da etiraf olundu. Kaya Kallas Prezident İlham Əliyevlə görüşündə Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolunu yüksək qiymətləndirərək, münasibətləri yeni səviyyəyə qaldırmaqda maraqlı olduqlarını bəyan etdi.

Sözügedən görüşdə Prezident İlham Əliyev ölkəmizlə Avropa İttifaqı arasında enerji, bağlantılar, təhlükəsizlik, ticarət və digər sahələrdə əməkdaşlığın perspektivlərinə toxundu. Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri, eyni zamanda ölkəmizin enerji təhlükəsizliyinin təmin olunması baxımından həmişə Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu vurğuladı.

O da vurğulandı ki, hazırda Azərbaycanla Avropa İttifaqının gündəliyində rəqəmsal transformasiya, süni intellekt, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər var.

Aİ-nin Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasın, eləcə də bu ilin 11 mart tarixində Aİ Şurasının prezidenti Antonio Koştanın ölkəmizə səfərləri Brüsselin Bakı ilə münasibətlərə yüksək qiymətinin göstəricisidir.

Prezident İlham Əliyevlə Aİ Şurasının prezidenti Antonio Koştanın mətbuata birgə bəyanatında Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığının strateji əhəmiyyəti vurğulanaraq, təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, son dövrdə keçirilmiş yüksəksəviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsinə sadiqlik ifadə olunub.

Liderlər uzunmüddətli vacib enerji tərəfdaşlığını xatırladaraq, Avropanın enerji təchizatının şaxələndirilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın rolunu xüsusi qeyd ediblər.

Göründüyü kimi, Azərbaycan dövlətinin milli maraqlara əsaslanan mövqeyi və qətiyyətli iradəsi Aİ-ni birtərəfli yanaşmalardan uzaqlaşaraq qarşılıqlı faydalı əməkdaşlıq müstəvisinə keçməyə sövq edib. İyunun ilk günlərində Bakıda 2026-2030-cu illəri əhatə edən Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri sənədinin layihəsinin ilkin olaraq razılaşdırılması da bunu sübut edir.

Bütün bunlar onu da təsdiqləyir ki, qarşılıqlı etimada əsaslanan yeni münasibətlər həm Bakının, həm də Brüsselin ortaq regional maraqlarına xidmət edən yeganə düzgün yoldur.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Azərbaycan Avropa ilə Asiya arasında mühüm enerji körpüsünə çevrilib

Qlobal enerji bazarlarında yeni geosiyasi reallıqların formalaşdığı, enerji təhlükəsizliyi və "yaşıl keçid"in beynəlxalq gündəliyin əsas mövzularına çevrildiyi bir dövrdə Azərbaycan özünü yalnız enerji istehsalçısı kimi deyil, həm də enerji siyasətini formalaşdıran və regionlararası əməkdaşlığı təşviq edən mühüm tərəfdaş kimi təsdiqləyib.



Azərbaycanın enerji sahəsində əldə etdiyi uğurların təməli 1990-cı illərin ortalarında Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində qoyulub. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" və daha sonra reallaşdırılan Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsi ölkənin enerji tarixində dönüş nöqtəsi oldu. Prezident İlham Əliyevin "Bakı Enerji Həftəsi"ndə qeyd etdiyi kimi, Azərbaycanın enerji inkişafı məhz həmin dövrdə başladı və ölkənin iqtisadi müstəqilliyinin əsasını təşkil etdi.

**Milli Məclisin deputatı Pərvanə VƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, bu il iyulun 13-də istifadəyə verilməsinin 20 illiyi qeyd olunacaq BTC kəməri təkcə neft ixracı layihəsi deyil, həm də regionda əməkdaşlıq, sabitlik və enerji təhlükəsizliyi modeli kimi tarixə düşüb: "Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən bu layihə Azərbaycanı dünya enerji xəritəsində mühüm mövqeyə çıxardı və sonrakı qlobal enerji təşəbbüslərinin əsasını yaratdı. Bu gün Azərbaycan qazı artıq 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətinə çatdırılır. Prezident İlham Əliyevin vurğuladığı kimi, Avropanın enerji təhlükəsizliyini "Cənub qaz dəhlizi" olmadan təsəvvür etmək çətindir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən TANAP, TAP və digər infrastruktur layihələri ölkəmizi etibarlı enerji tərəfdaşına çevirib".

Azərbaycanın enerji siyasətinin artıq yalnız neft və qazla məhdudlaşmadığını qeyd edən deputat bildirib ki, son illərdə ölkəmiz "yaşıl enerji" sahəsində də böyük addımlar atır. Prezident İlham Əliyevin rəhbərliyi ilə bərpaolunan enerji mənbələrinin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Azərbaycanın quruda 135 giqavat, dənizdə isə 157 giqavat həcmində texniki bərpaolunan enerji potensialına malik olması ölkəmizə bu sahədə mühüm üstünlüklər qazandırır. "Hazırda ölkəmizdə onlarca "yaşıl enerji" layihəsi həyata keçirilir. Mingəçevirdə yeni elektrik stansiyasının açılması, Cəbrayılda yeni günəş-elektrik stansiyalarının tikintisi, işğaldan azad olunmuş ərazilərdə minlərlə ev və ictimai binada günəş panellərinin quraşdırılması bu siyasətin praktik nəticələridir. Qarabağ və Şərqi Zəngəzur artıq "yaşıl enerji zonası" elan olunub və həmin ərazilərdə hidroenerji layihələri də sürətlə inkişaf edir. Prezident İlham Əliyevin "Bakı Enerji Həftəsi"ndə bildirdiyi kimi, gələn ilin sonunadək Azərbaycanın günəş və külək enerjisi üzrə gücü 2 giqavata, 2032-ci ilədək isə 8 giqavata çatacaq. Bu, ölkənin enerji balansında bərpaolunan mənbələrin rolunu əhəmiyyətli dərəcədə artıracaq", - deyə deputat əlavə edib.

P.Vəliyeva vurğulayıb ki, Azərbaycan regionun "yaşıl enerji" mərkəzinə çevrilməsi istiqamətində böyük işlər görür. Hazırda bir neçə "yaşıl enerji" dəhlizi üzərində iş aparılır. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış strateji tərəfdaşlıq sazişi, eləcə də Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan marşrutu üzrə "yaşıl enerji" layihələri Xəzərdən Avropaya uzanan yeni enerji xəritəsinin formalaşmasına xidmət edir. Bununla yanaşı, Azərbaycan-Qazaxıstan-Özbəkistan əməkdaşlığı Mərkəzi Asiyanın "yaşıl enerji"sinin Avropa bazarlarına çıxarılmasına imkan yaradacaq.

Deputat qeyd edib ki, 2024-cü ildə Azərbaycanın evsahibliyi etdiyi COP29 bu proseslərə əlavə təkan verib. Bu çərçivədə qəbul edilən qərarlar və qlobal öhdəliklər enerji keçidinin sürətləndirilməsi, "yaşıl investisiyalar"ın artırılması və iqlim fəaliyyətinin gücləndirilməsi baxımından mühüm mərhələ oldu: "Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"ndə çıxışında xüsusi vurğuladı ki, ölkələr neft və qaz ehtiyatlarına malik olduqları üçün deyil, həmin resurslardan əldə olunan gəlirləri necə idarə etdiklərinə görə qiymətləndirilməlidirlər. Azərbaycan məhz bu model üzrə hərəkət edərək enerji gəlirlərini sosial inkişafa, infrastrukturun qurulmasına, insan kapitalına və "yaşıl gələcəy"ə yönəldib. Bu gün Azərbaycan strateji diplomatiya, uğurlu enerji siyasəti və regional əməkdaşlıq sayəsində Avropa ilə Asiya arasında mühüm enerji körpüsünə çevrilib. Ənənəvi enerji resursları ilə "yaşıl enerji"nin harmoniyasını yaradan Azərbaycan qlobal enerji təhlükəsizliyinin təmin edilməsində və enerji keçidinin sürətləndirilməsində öz lider mövqeyini daha da möhkəmləndirir".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# AÇG-də daha bir yenilik

## MLT texnologiyası maksimum neftverməyə dəstək göstərəcək

Nəhəng "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar bloku 30 ilə yaxındır neft verir. Bu dövr ərzində AÇG-dən ixrac üçün təxminən 4,6 milyard barel neft hasil olunub. Bu blokun işlənməsi müddəti 2017-ci il sentyabrın 14-də 2049-cu ilin sonunadək uzadıldı. Bu günlərdə isə AÇG-nin dərin qatlarından ilk sərbəst qaz da hasil olundu. Lakin blokdakı yenilik təkcə bundan ibarət deyil.

AÇG-nin operatoru olan BP şirkətindən aldığımız məlumata görə, burada ilk dəfə olaraq multilüləli quyu (MLT) texnologiyası uğurla tətbiq edilib. Bu, Xəzər dənizinin ən uzun müddət istismarda olan yataqlarından birindən neftvermə əmsalının maksimuma çatdırılması və hasilatın uzunmüddətli davamlılığının təmin edilməsi istiqamətində mühüm bir addımdır.

MLT texnologiyasının tətbiqi AÇG-nin mürəkkəb geoloji strukturlarında qazma işlərinin texniki çətinliklərini aradan qaldırmaqla yanaşı, platformalarda mövcud quyu şaxtalarının məhdudluğu probleminin həllinə də dəstək verir. Bu texnologiya bir quyu lüləsindən lay-kollektora bir neçə yerdən daxil olmağa imkan verməklə lay-kollektora çıxışı genişləndirmək, drenaj səmərəliliyini artırmaq və mövcud infrastrukturdan maksimum faydalanmaq üçün şərait yaradır.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli bununla bağlı deyib: "Yeni texnoloji yanaşma BP-nin AÇG yataqlarından hasilatın azalma tempinin idarə olunmasına yönəlmiş genişmiqyaslı strategiyasının əsasını təşkil edir. Bu yanaşma həm kapital səmərəliliyini optimallaşdırmağa, həm də hasilatın uzunmüddətli davamlılığının təmin olunmasına kömək edir. AÇG-nin daha mürəkkəb və yetkin bir işlənmə mərhələsinə keçdiyi bir vaxtda MLT texnologiyası əlavə ehtiyatların aşkara çıxarılmasında və yataqların iqtisadi səmərəlilik müddətinin uzadılmasında mühüm rol oynayacaq. Bu cür quyu konstruksiyasını ilk dəfədir ki, AÇG-də tətbiq edirik və bu, mövcud yataqlardan neftvermə əmsalının maksimuma çatdırılması üçün ən uyğun texnoloji həllərdən istifadə etmək öhdəliyimizin göstəricisidir".

Qeyd edək ki, perspektivdə hasilatın uzunmüddətli davamlılığını təmin etmək və əlavə dəyər yaratmaq baxımından bu cür innovativ həllər mühüm rol oynayacaq. MLT texnologiyası lay-kollektorla təması artırır, qazma qurğusunun məhsuldarlığını və əməliyyat səmərəliliyini yüksəldir, eləcə də mövcud infrastrukturdan ən effektiv şəkildə istifadə etməklə quyu şaxtalarının optimal istifadəsini təmin edir. Bu baxımdan həmin texnologiyanın tətbiqi AÇG-də quyuların qazılması və tamamlanması prosesində keyfiyyətcə yeni bir mərhələdir. Bu texnologiya dünya miqyaslı AÇG blokunun istismar müddətini uzatmaqla yanaşı, enerji hasilatının təhlükəsiz, səmərəli və məsuliyyətli şəkildə davam etməsi üçün ən effektiv yollardan biri sayılır.



İlk MLT quyusu olan C44 quyusu "Qərbi Azəri" platformasından qazılıb və artıq uğurla təhvil verilib. Bu, Xəzərdə indiyədək qazılmış ilk çoxlüləli quyu olmaqla, AÇG layihəsi üçün əlamətdar bir nailiyyətdir. Bu uğur MLT texnologiyasının AÇG-nin mürəkkəb lay-kollektor şəraitində həm texniki cəhətdən tətbiqinin mümkünlüyünü, həm də yüksək iqtisadi səmərəsini aydın şəkildə göstərir.

BP-nin quyular üzrə vitse-prezidenti Rassel Morrisin yeni texnologiya ilə bağlı fikri belədir: "İlk MLT quyusunun qazılması və tamamlanması həm vaxt, həm də əməyin təhlükəsizliyi baxımından yüksək göstəricilərlə yerinə yetirilib. Belə ki, quyu tam təhlükəsiz şəkildə, qrafiki xeyli qabaqlayaraq planlaşdırılandan bir ay əvvəl təhvil verilib. Əldə olunmuş bu nailiyyət dəqiq planlaşdırma, işlərin yüksək səviyyədə icrası və lay-kollektordakı qeyri-müəyyənliklərin düzgün idarə olunmasının göstəricisidir".

Bu quyu eyni zamanda geologiya, qazma və tamamlama sahələrinin uğurlu inteqrasiyasının nəticəsidir və koordinasiya olunmuş fəaliyyətin həm texniki, həm də kommersiya baxımından necə böyük səmərə verə biləcəyini nümayiş etdirir. O, əldə olunmuş yüksək göstəriciləri ilə yanaşı, çoxlüləli quyu texnologiyasının bütün blok miqyasında daha geniş tətbiqi üçün biznes baxımından tam əsaslandırılmış güclü bir zəmin yaradır.

Aldığımız məlumata görə, BP şirkəti AÇG yataqlarında texnologiyaların strateji tətbiqi çərçivəsində ümumiyyətlə çoxlüləli quyuların qazılması məqsədilə geniş kampaniya həyata keçirməyi planlaşdırır. Bu kampaniyaya cari ilin ilk yarısında istismara verilməsi planlaşdırılan C44 və D41 quyuları da daxil olmaqla 2026-cı il ərzində üç MLT quyusu ilə start veriləcək. Uzunmüddətli perspektivdə isə 2027-2028-ci illər ərzində daha çox sayda çoxlüləli quyuların qazılması nəzərdə tutulur ki, bu da həmin texnologiyanın blokun gələcək hasilatında mühüm rol oynayacağını bir daha vurğulayır.

AÇG-nin mürəkkəb lay-kollektorunu xarakterizə edən müxtəlif növ çətinlikləri yalnız MLT texnologiyası ilə həll etmək mümkün olmadığından onun işlənmə strategiyası hər bir konkret lay hədəfi üçün ən optimal texnoloji konfiqurasiyanın tətbiqinə əsaslanır. Bununla da müxtəlif geoloji mühitlərdə icra səmərəliliyinin yüksək səviyyəsi təmin olunur. Buraya MLT texnologiyasının üfüqi qazma, qabaqcıl geonaviqasiya, eləcə də qum təzahürü ilə mübarizə və axının tənzimlənməsinə yönəlmiş "ağıllı tamamlama sistemləri" ilə birgə tətbiqi daxildir. Bu da bütün yataq miqyasında neftvermə əmsalını daha da artırmaq üçün geniş imkanlar yaradır.

*Flora SADIQLI, "Azərbaycan"*

# Ölkəmizin qlobal enerji siyasətinin mühüm subyektlərindən biri olduğu növbəti dəfə təsdiqləndi

## Azərbaycan enerji təhlükəsizliyi ilə "yaşıl transformasiya" arasında balans yaradan azsaylı ölkələrdəndir

**Ölkəmizin paytaxtında dünya energetika sahəsində ən nüfuzlu və genişmiqyaslı tədbirlərdən olan "Bakı Enerji Həftəsi"ndə son 30 ildə Azərbaycanın keçdiyi inkişaf yolunun, reallaşdırılan strateji qərarların və formalaşdırılan dövlət modelinin beynəlxalq auditoriyaya təqdimatı oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbirdəki çıxışı isə Azərbaycanın müasir inkişaf fəlsəfəsinin, milli maraqlara əsaslanan siyasətinin və praqmatik dövlət idarəçiliyinin konseptual izahı kimi tarixi əhəmiyyət daşıyır.**

**"Bakı Enerji Həftəsi" dünyanın aparıcı enerji platformalarından biridir. Bu beynəlxalq tədbir 1994-cü ildə ilk dəfə təşkil olunmuş Xəzər Neft və Qaz Sərgisi ilə başlamışdır. O zaman müstəqilliyini yenicə bərpa etmiş, siyasi və iqtisadi böhran yaşayan Azərbaycan üçün belə bir tədbirin keçirilməsi böyük hadisə hesab olunurdu. Bu gün isə həmin tədbir artıq qlobal enerji gündəmini müəyyənləşdirən platformalardan biri kimi qəbul edilir.**




Təsadüfi deyil ki, dünyanın ən nüfuzlu siyasi liderləri "Bakı Enerji Həftəsi"nə xüsusi diqqət göstərirlər. ABŞ Prezidenti Donald Trampın, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Böyük Britaniyanın Baş naziri Kir Starmerin tədbir iştirakçılarına ünvanladıqları məktublar Azərbaycanın enerji sahəsində qazandığı beynəlxalq nüfuzun göstəricisidir. Bu məktublar həm də Azərbaycanın qlobal enerji siyasətinin mühüm subyektlərindən biri kimi rolunu, nüfuzunu nümayiş etdirir.

### Enerji siyasətində praqmatizmin qələbəsi

Son illər neft və qaz sənayesinə qarşı aparılan kampaniyalar fonunda Azərbaycan Prezidentinin bu məsələlərə münasibəti böyük maraq doğurur. Məlumdur ki, uzun müddət ərzində bəzi dairələr məqsədli şəkildə karbohidrogen sənayesini hədəfə alır, neft və qaz istehsal edən ölkələri müxtəlif ittihamlarla damğalayırdılar. Özü də hər hansı əsas olmadan.

Son dövrlərin qlobal reallıqları isə göstərdi ki, dünya iqtisadiyyatı hələ uzun illər ərzində neft və qaz olmadan ayaqda dura bilməz. Enerji keçidi vacibdir, "yaşıl enerji" gələcəyin əsas istiqamətlərindən biridir, lakin bu proses real iqtisadi tələblər və enerji təhlükəsizliyi ilə uzlaşdırılmalıdır. Cənab İlham Əliyevin də vurğuladığı kimi, əsas məsələ ideoloji yanaşmalar deyil, praqmatizmdir. Enerji təhlükəsizliyi ilə "yaşıl transformasiya" arasında balans tapılmalıdır və Azərbaycan məhz bu yanaşmanı seçib. Ölkəmiz həm neft-qaz ehtiyatlarından səmərəli istifadə edir, həm də bərpaolunan enerji layihələrinə milyonlarla dollar investisiya yatırır. Bu baxımdan Azərbaycan liderinin ABŞ Prezidenti Donald Trampa enerji siyasətini "yenidən normal məcraya qaytardığına görə" təşəkkür ifadəsi diqqətçəkən siyasi mesaj idi. Bu fikir enerji təhlükəsizliyinin ideoloji yox, iqtisadi və strateji kateqoriya kimi qəbul edilməsinin vacibliyini göstərir.

Əslində, son illərin hadisələri də Azərbaycanın mövqeyinin doğruluğunu təsdiqləyir. Avropada baş verən enerji böhranı, qlobal təchizat zəncirlərindəki problemlər və geosiyasi gərginliklər bir daha sübut etdi ki, enerji siyasəti emosiyalarla deyil, reallıqlarla idarə olunmalıdır. Bu reallıq enerji siyasətində praqmatizmin qələbəsidir və bu qələbənin əsas müəlliflərindən biri də məhz Azərbaycandır və onun lideridir.

### Neft gəlirlərinin səmərəli idarə olunmasının Azərbaycan modeli

Təbii sərvətlərə malik olmaq hələ inkişaf demək deyil. Dünya təcrübəsində kifayət qədər nümunələr mövcuddur ki, zəngin enerji resurslarına sahib ölkələr həmin sərvətləri iqtisadi və sosial inkişafa çevirə bilməyiblər. Azərbaycanın uğuru məhz burada ortaya çıxır. Azərbaycan enerji resurslarından əldə olunan vəsaitləri ölkənin gələcəyi üçün istifadə edib və etməkdədir.

Neft gəlirləri ölkəmizin inkişafı üçün son dərəcə zəruri olan sosial infrastrukturun qurulmasına, təhsil və səhiyyə sisteminin inkişafına, müasir yol və nəqliyyat şəbəkələrinin yaradılmasına, müdafiə potensialının gücləndirilməsinə və s. vacib istiqamətlərə yönəldilir. Son onilliklər ərzində Azərbaycanın hər bir bölgəsində məktəblər, xəstəxanalar, idman kompleksləri, hava limanları, magistral yollar inşa olunub. Elektrik enerjisi, qaz və içməli su ilə təminat əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb. Əgər neft gəlirləri yalnız cari istehlaka yönəldilsəydi, bu gün Azərbaycanın əldə etdiyi nəticələr mümkün olmazdı. Ölkəmiz isə təbii sərvətlərini milli inkişaf kapitalına çevirməyi bacarıb və bu model hazırda bir çox ölkə üçün maraqlı təcrübə hesab olunur. Çünki burada əsas məsələ sərvətin həcmi deyil, onun idarə olunma keyfiyyətidir.

Prezident İlham Əliyevin çıxışında müqayisəli statistik göstəricilər xüsusilə diqqət çəkirdi. Həmin rəqəmlər Azərbaycanın son 30 ildə keçdiyi yolu aydın şəkildə göstərir: ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan faktiki olaraq ağır böhran içində olan ölkə idi, ərazimizin 20 faizi işğal edilmişdi, 1 milyondan çox insanımız qaçqın və məcburi köçkün vəziyyətində yaşayırdı. Ölkə iqtisadiyyatı, demək olar ki, dağılmışdı, yoxsulluq səviyyəsi 50 faizdən yüksək idi. Elektrik enerjisi və qaz çatışmazlığı mövcud idi və onlar əhaliyə böyük fasilələrlə verilirdi. Xarici investorlar Azərbaycanı riskli dövlət hesab etdiklərindən ölkəmizə sərmayələr yatırmağa maraq göstərmirdilər.

Bu gün isə tamamilə fərqli mənzərə mövcuddur. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın öz imkanları hesabına yenidən qurulur. Ölkəmizdə yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik minimum səviyyəyə düşüb. Xarici borc ÜDM-in təxminən 6 faizini təşkil edir ki, bu da ən yaxşı göstəricilərdən biridir, yəni dünyada ən aşağı borclardandır. Dövlətin strateji valyuta ehtiyatları xarici borcu dəfələrlə üstələyir. Bu yüksək göstəricilərin hər biri düzgün siyasi və iqtisadi qərarların nəticəsidir.

1994-cü ildə dünyanın aparıcı enerji sənayesi şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycan üçün xarici investisiyaların cəlb olunmasının başlanğıcı sayılır. O dövrdə ölkənin əsas məqsədi beynəlxalq kapitalı Azərbaycana gətirmək idi. Bu gün isə vəziyyət dəyişib, Azərbaycan investisiya cəlb edən ölkədən investor ölkəyə çevrilib. Azərbaycanın dövlət neft şirkəti SOCAR təkcə ölkə daxilində deyil, dünyanın müxtəlif regionlarında da böyük layihələr həyata keçirir, Türkiyə, Mərkəzi Asiya, Yaxın Şərq və Afrika bazarlarında aktiv fəaliyyət göstərir.

Bu böyük dəyişiklik ölkəmizin iqtisadi gücünün göstəricisidir. Bir vaxtlar xarici investisiyalara ehtiyac duyan Azərbaycan bu gün beynəlxalq investisiya axınlarının iştirakçısına çevrilib. Bütün bunlar ölkəmizin enerji siyasətinin yalnız hasilat və ixrac deyil, həm də kapital formalaşdırılması və beynəlxalq iqtisadi nüfuz yaradılması baxımından uğurunu nümayiş etdirir. Prezident İlham Əliyevin çıxışında vurğuladığı kimi: "Bütün bunlar birinci növbədə bizim təbii sərvətlərimizdən düzgün istifadə etdiyimizə görə baş verdi. Biz həm investorlara, həm də ev sahibi ölkəsinə qazanc gətirən vəziyyəti yaratdıq. Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik və işimizə müdaxilə etmək, bizə pis məsləhət vermək istəyənlərə qulaq asmadıq. Biz hər bir işi strategiyamız əsasında etdik. Bütün taktiki gedişlərimiz həmin strategiyaya əsaslanırdı... Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər".

### Güclü iqtisadiyyat - qüdrətli ordu

Tarix bu həqiqəti dəfələrlə sübuta yetirib ki, güclü ordu güclü iqtisadiyyat olmadan formalaşa bilməz. Azərbaycanın enerji layihələri sayəsində əldə etdiyi maliyyə imkanları ölkəmizə müasir ordu qurmağa şərait yaratdı. Son 20 ildə Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası köklü şəkildə yeniləndi, ən müasir silah sistemləri alındı, peşəkar hərbi kadrlar yetişdirildi. Nəticədə 2020-ci ildə Azərbaycan cəmi 44 gün ərzində tarixi Qələbə qazanaraq torpaqlarımızı işğaldan azad etdi, 2023-cü ilin sentyabrında isə 23 saatlıq antiterror əməliyyatı ilə Qarabağda separatçıların kökünü kəsib suverenliyinə nail oldu.

Bu baxımdan enerji siyasəti ilə Vətən müharibəsində əldə edilmiş Zəfər arasında birbaşa əlaqə mövcuddur. Enerji resurslarından əldə edilən gəlirlər dövlətin iqtisadi dayanıqlığını artırmaqla yanaşı, milli təhlükəsizliyin təmin edilməsinə də xidmət etdi.

Bu gün dünyanın müxtəlif regionlarında Azərbaycanın ötən əsrin 90-cı illərində üzləşdiyi problemlərlə qarşılaşan dövlətlər mövcuddur. Ərazi münaqişələri, qaçqın problemləri, iqtisadi böhranlar və enerji resurslarından səmərəsiz istifadə kimi hallar bir çox ölkə üçün aktualdır. Azərbaycanın təcrübəsi isə göstərir ki, təbii sərvətlər düzgün idarə olunarsa, onlar inkişafın güclü mühərrikinə çevrilə bilər.

Ölkəmizin son 30 ildəki inkişafı iqtisadi, sosial, hərbi və diplomatik sahələrin bir-birindən ayrılmaz olduğunu nümayiş etdirir. Güclü iqtisadiyyat qüdrətli ordu yaradır, qətiyyətli və proqmatik güclü diplomatiya iqtisadi layihələri təmin edir, enerji gəlirləri isə sosial rifahı yüksəldir. Bu səbəbdən Azərbaycan modeli bir çox beynəlxalq ekspert tərəfindən uğurlu inkişaf nümunəsi kimi qiymətləndirilir.

### Yeni enerji mərhələsi

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı Azərbaycanın gələcək enerji mənzərəsini də canlandırırdı. "Azəri-Çıraq-Dərinsulu Günəşli" (Deep Gas) layihəsi Azərbaycanın qaz hasilatını artırmağa imkan verəcək. Eyni zamanda ölkəmizin təsdiqlənmiş qaz ehtiyatları ən azı növbəti yüz il ərzində həm daxili tələbatı, həm də beynəlxalq tərəfdaşların ehtiyaclarını ödəməyə yetəcək. Təqdir olunan məqam isə həm də ondan ibarətdir ki, Azərbaycan yalnız ənənəvi enerji mənbələrinə güvənmir. Ölkəmiz eyni zamanda genişmiqyaslı "yaşıl enerji" proqramlarını uğurla həyata keçirir. Gələn ilin sonuna qədər günəş və külək enerjisi üzrə istehsal gücünün 2 giqavata çatdırılması planlaşdırılır. 2032-ci ilin sonuna qədər isə bu göstəricinin 8 giqavat olması nəzərdə tutulur. Bu, Azərbaycanın enerji siyasətinin uzunmüddətli və balanslaşdırılmış xarakter daşıdığını, həmçinin qlobal əhəmiyyətini göstərir. Bu gün Azərbaycan qlobal enerji təhlükəsizliyinin vacib iştirakçılarındandır. TANAP və TAP layihələri artıq Avrasiyanın enerji xəritəsini dəyişdirib, Azərbaycan qazı hazırda 16 ölkəyə ixrac olunur və bu coğrafiya ildən-ilə genişlənir.

Avropa üçün enerji mənbələrinin şaxələndirilməsi xüsusi əhəmiyyət daşıdığı bir dövrdə Azərbaycan ən etibarlı tərəfdaş kimi illərdir ona olan güvəni qoruyur. Azərbaycan qazı siyasi təzyiq aləti deyil, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsi rolunda çıxış edir.

Ölkəmiz Şərqlə Qərb arasında enerji və logistika körpüsü rolu ilə bir çox Xəzəryanı dövlət üçün də mühüm tranzit imkanları təqdim edir. Azərbaycan Prezidenti çıxışında nəqliyyat-kommunikasiya layihələrinin əhəmiyyətinə də xüsusi diqqət yönəltdi. Bu kontekstdə xüsusi yer tutan Zəngəzur dəhlizi (TRIPP) Şərq-Qərb marşrutunun yeni və strateji qolu kimi çıxış edəcək və yalnız Azərbaycan üçün deyil, bütün region üçün böyük iqtisadi imkanlar yaradacaq. Ötən ilin avqustunda ABŞ-də, Ağ Evdə imzalanmış sənədlər, ötən ildən bəri bu istiqamətdə aparılan danışıqlar, atılan addımlar da göstərir ki, beynəlxalq tərəfdaşlar bu layihənin potensialını yüksək qiymətləndirirlər. Əslində, Zəngəzur dəhlizi Azərbaycanın son 30 ildə formalaşdırdığı tranzit və logistika strategiyasının məntiqi davamıdır.

### Azərbaycanın uğur modeli

Ölkəmizin son onilliklərdə əldə etdiyi uğurları, o cümlədən enerji sektorundakı nailiyyətlərini yalnız təbii sərvətlərin zənginliyi ilə izah etmək düzgün olmaz. Bu uğurların hər birinin arxasında son dərəcə peşəkar diplomatiya dayanır. Dünya okeanlarına çıxışı olmayan ölkənin enerji resurslarını beynəlxalq bazarlara çıxarması mürəkkəb geosiyasi prosesdir. Bunun üçün qonşularla etibarlı münasibətlər qurmaq, müxtəlif siyasi sistemlərə malik dövlətlərlə əməkdaşlıq etmək, regional sabitliyi qorumaq lazımdır.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursu ilə ölkəmizi tarixinin ən qüdrətli mərhələsinə çatdırmış Prezident İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində Azərbaycan məhz bunu bacarıb. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və TAP kimi layihələr iqtisadi mahiyyəti ilə yanaşı, həm də diplomatik uğurun nəticəsidir. Bu layihələrin hər biri müxtəlif ölkələrin maraqlarını uzlaşdıran mürəkkəb siyasi razılaşmalar əsasında reallaşıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli xarici siyasət Azərbaycanın həm Şərqdə, həm Qərbdə, həm də qlobal Cənubda etibarlı tərəfdaş kimi qəbul olunmasını təmin edib. Məhz buna görə Azərbaycan bu gün təkcə enerji ixrac edən ölkə deyil, regionun siyasi, iqtisadi və nəqliyyat mərkəzlərindən biridir.

"Bakı Enerji Həftəsi"nin məzmunu, burada səslənən fikirlər də bir daha göstərdi ki, Azərbaycanın enerji siyasəti, sadəcə, karbohidrogen hasilatı ilə məhdudlaşmır. Bu siyasət dövlət quruculuğu, iqtisadi inkişaf, sosial rifah, hərbi güc, beynəlxalq nüfuz və diplomatik uğurların vahid sistemidir.

Ötən əsrin 90-cı illərinin əvvəlində ağır böhran yaşayan, ərazilərinin bir hissəsi işğal altında olan, xarici yardıma ehtiyac duyan Azərbaycan bu gün qlobal enerji təhlükəsizliyinin mühüm təminatçılarından biri, investor ölkə, regional lider və beynəlxalq diplomatiyanın fəal iştirakçısıdır. Prezident İlham Əliyevin "Bakı Enerji Həftəsi"ndəki çıxışı da məhz bu gerçəkliyi nümayiş etdirirdi: təbii sərvətlər özlüyündə sərvət deyil, onları milli maraqlara uyğun şəkildə idarə etmək, gələcək nəsillərin rifahına çevirmək və dövlətin strateji gücünü artırmaq əsas məsələdir.

Azərbaycanın keçdiyi yol göstərir ki, düzgün siyasi liderlik, uzaqgörən strategiya və praqmatik yanaşma olduqda enerji resursları iqtisadi gəlir mənbəyi olmaqla yanaşı, həm də milli yüksəlişin təməlidir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Rumıniya nəşri: AÇG-də qaz hasilatının başlanması Azərbaycanın enerji rolunu gücləndirir

Macarıstanın aparıcı enerji şirkəti "MOL Group" və onun tərəfdaşlarının Azərbaycanın nəhəng "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunda ilk kommersiya qaz hasilatına başlaması yalnız Azərbaycanın enerji sənayesində deyil, həm də Avropanın enerji təhlükəsizliyi sistemində mühüm mərhələnin başlanğıcı hesab olunur.

AZƏRTAC xəbər verir ki, bu barədə məlumat Rumıniyanın "Stiri pe surse" nəşrinin hazırladığı məqalədə yer alıb.

Məlumatda bildirilir ki, hasilat Xəzər dənizində yerləşən "Qərbi Çıraq" platformasından qazılmış ilk quyudan həyata keçirilir. Bununla da uzun illər əsasən neft yatağı kimi tanınan AÇG blokunda qaz ehtiyatlarının kommersiya məqsədilə istifadəsinə başlanılıb. Bu layihə Azərbaycanın enerji sektorunun inkişafında yeni mərhələ açır və ölkənin beynəlxalq enerji bazarlarındakı mövqeyini daha da möhkəmləndirir.

Məqalədə qeyd olunur ki, son geoloji araşdırmalar AÇG yatağında böyük qaz ehtiyatlarının mövcudluğunu təsdiqləyib. İlkin hesablamalara görə, yataqda trilyonlarla kubmetr qaz ehtiyatı mövcuddur ki, bu da gələcək illərdə Azərbaycanın ixrac imkanlarını əhəmiyyətli dərəcədə genişləndirə bilər.

Ekspertlər hesab edirlər ki, layihənin əhəmiyyəti xüsusilə Avropanın enerji siyasəti baxımından diqqətəlayiqdir. Son illərdə Avropa İttifaqı enerji mənbələrinin şaxələndirilməsini strateji prioritet elan edib. Bu prosesdə Azərbaycan etibarlı tərəfdaş kimi ön plana çıxıb. Avropa ölkələri Rusiyadan enerji asılılığını azaltmağa çalışdığı bir dövrdə Azərbaycanın qaz ehtiyatları və mövcud ixrac infrastrukturu xüsusi əhəmiyyət daşıyır.

Məqalədə vurğulanır ki, Azərbaycan artıq təkcə neft ixrac edən ölkə deyil. Son illərdə ölkə Avropanın mühüm qaz təchizatçılarından birinə çevrilib. "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycan qazı İtaliya, Yunanıstan, Bolqarıstan və digər Avropa ölkələrinə çatdırılır. AÇG yatağından hasil olunacaq əlavə qaz həcmləri bu marşrutların daha da güclənməsinə imkan yarada bilər.

Nəşr qeyd edir ki, layihədə dünyanın aparıcı enerji şirkətləri iştirak edir. Operator qismində BP çıxış edir. Konsorsiumun digər üzvləri sırasında SOCAR, MOL Group, INPEX, ExxonMobil, TPAO və ONGC Videsh kimi iri beynəlxalq şirkətlər yer alır. Bu isə Azərbaycanın enerji sektoruna beynəlxalq investorların uzunmüddətli etimadını nümayiş etdirir.

Məqalədə xatırladılır ki, AÇG yataqları Azərbaycanın müasir iqtisadi inkişaf tarixində xüsusi yer tutur. 1994-cü ildə imzalanmış və "Əsrin müqaviləsi" kimi tarixə düşmüş saziş ölkənin enerji strategiyasının əsasını qoyub. Həmin layihə Azərbaycanın qlobal enerji bazarlarına inteqrasiyasını təmin edib və ölkənin iqtisadi inkişafında mühüm rol oynayıb.

Bu gün isə AÇG-də qaz hasilatının başlanması həmin layihənin yeni mərhələyə keçdiyini göstərir. Mütəxəssislər hesab edirlər ki, bu addım Azərbaycanın enerji sektorunun şaxələndirilməsinə, ixrac potensialının artırılmasına və ölkənin beynəlxalq enerji bazarlarındakı rolunun güclənməsinə xidmət edəcək.

Məqalədə vurğulanır ki, Azərbaycanın enerji siyasətinin əsas üstünlüklərindən biri uzunmüddətli sabitlik və etibarlılıqdır. Məhz bu amillər ölkəni Avropanın enerji təhlükəsizliyi strategiyasında vacib tərəfdaşa çevirib. Yeni qaz layihələrinin işə salınması isə Azərbaycanın həm regional, həm də qlobal enerji bazarlarında strateji əhəmiyyətini daha da artırır.




Ekspertlərin qənaətinə görə, AÇG yatağında qaz hasilatının başlanması Azərbaycanın Avropanın enerji xəritəsində mövqeyini gücləndirən növbəti mühüm addımdır. Bu layihə ölkənin enerji potensialını genişləndirməklə yanaşı, Avropanın enerji təhlükəsizliyinə və enerji mənbələrinin şaxələndirilməsi siyasətinə də mühüm töhfə verəcək.

# Maqbat SPANOV: "Orta dəhlizin potensialından daha səmərəli istifadə üçün yeni əməkdaşlıq mexanizmləri formalaşdırıla bilər"

"Bakı-Tbilisi-Qars dəmir yolu xəttində həyata keçirilən modernləşdirmə nəticəsində xəttin yükötürmə qabiliyyətinin illik 1 milyon tondan 5 milyon tona yüksəldilməsi bütövlükdə Orta dəhlizin tranzit imkanlarının genişlənməsində mühüm rol oynayacaq".



Bunu AZƏRTAC-a açıqlamasında qazaxıstanlı ekspert Maqbat Spanov bildirib.

Onun sözlərinə görə, hazırda Orta dəhliz üzrə yükdaşımaların həcmi təxminən 6 milyon ton təşkil edir və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsi bu göstəricinin daha da artmasına şərait yaradacaq.

"Qazaxıstan Orta dəhlizin inkişafına böyük əhəmiyyət verir və bu marşrutun potensialının artırılması istiqamətində ardıcıl addımlar atır. Bu da təsadüfi deyil. Çünki Orta dəhliz ölkə üçün son dərəcə vacib istiqamətlərdən biri hesab olunur. Qazaxıstan öz logistika imkanlarını genişləndirərək gələcəkdə ölkə ərazisindən keçən yükdaşımaların həcmini təxminən 10 milyon tona çatdırmağı planlaşdırır".

M.Spanov qeyd edib ki, beynəlxalq logistika marşrutları uğrunda rəqabət gələcək illərdə də davam edəcək və bu şəraitdə Azərbaycan və Qazaxıstan Orta dəhlizin potensialından daha səmərəli istifadə etmək və yük axınlarının həcmini artırmaq üçün yeni əməkdaşlıq mexanizmləri formalaşdıra bilərlər.

Eksper hesab edir ki, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsi yalnız Azərbaycan və Qazaxıstan üçün deyil, bütövlükdə Mərkəzi Asiya ilə Avropa arasında nəqliyyat əlaqələrinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır və bu, Orta dəhlizin beynəlxalq logistika sistemində rolunu daha da gücləndirəcək.

# Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımova həsr olunmuş "Düşmənə qarşı tək" qısametrajlı filminin təqdimatı olub






İyunun 4-də Nizami Kino Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımova həsr olunmuş süni intellekt texnologiyaları vasitəsilə hazırlanmış "Düşmənə qarşı tək" qısametrajlı filminin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət nümayəndələri, Milli Qəhrəmanın ailə üzvləri, şəhid ailələri, incəsənət xadimləri iştirak ediblər.

Tədbir ərazi bütövlüyümüz və suverenliyimiz naminə canından keçmiş qəhrəmanların əziz xatirəsinin birdəqiqəlik sükutla yad olunması və Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən SOY Production şirkətinin və layihənin rəhbəri, Əməkdar artist Dilarə Əliyeva filmin şirkətin nəzdində hazırlanmış üçüncü süni intellekt filmi olduğunu deyib.

"Burada real aktyorlar oynamasa da, real rejissor meydançada olmasa da, real operator işləməsə də, real səs rejissoru çalışmasa da, real qrim ustası aktyorları qrim etməsə də, film çox realdır. Bizim niyyətimiz Milli Qəhrəmanımız Natiq Qasımovun haqqını verməkdir. Natiq Qasımov Mingəçevirdə kinoteatrda kino mexaniki işləyib. Onun kinoya böyük marağı olub. Əminəm ki, bu gün onun ruhu bizimlədir. Filmin ərsəyə gəlməsində bizə göstərilən dəstəyə görə Bakı Media Mərkəzinə, xüsusilə onun rəhbəri Arzu Əliyevaya minnətdarıq", - deyə D.Əliyeva bildirib.

Filmin ssenari müəllifi, süni intellekt üzrə mütəxəssis Sarvan Hüseyn Natiq Qasımovla bağlı film çəkməyin ən böyük arzularından biri olduğunu və bunu reallaşdıra bildiyi üçün qürurlandığını qeyd edib: "Natiq Qasımovla bağlı məlumatların bir çoxunu internet resurslarından əldə etdikdən sonra Mingəçevirə yola düşdüm. Qəhrəmanın ailə üzvləri mənə bu işdə çox dəstək oldular. Filmdəki bütün kadrlarda Xocalıdan götürülmüş səhnələr süni intellekt vasitəsilə daha real vəziyyətə gətirilib. Demək olar ki, 80 faiz səhnə reallığı əks etdirir. Süni intellektlə hissi ötürmək çətin olsa da, bunu etməyə çalışmışam. İnanıram ki, filmdə Natiq Qasımovun qəhrəmanlığını, şücaətini çatdıra bilmişəm".

Natiq Qasımovun beş gün beş gecə ac-susuz, köməksiz şəkildə müqəddəs amalını yerinə yetirdiyini diqqətə çatdıran filmin redaktoru Fariz Əliyev bu gün Azərbaycan xalqının onu Milli Qəhrəman kimi böyük ehtiramla yad etdiyini deyib: "Natiq Qasımovun həyat hekayəsinə nəzər salarkən qürurlanırıq ki, onun kimi neçə belə qəhrəmanla bir xalqın, bir torpağın nümayəndəsiyik. Həmin qəhrəmanlar bu gün bizim aramızda olmasalar da, onların uğrunda canlarını qurban verdikləri Vətən torpağı artıq bütövləşib. Bu cür oğulların hər biri ilə fəxr edirik".

Daha sonra film nümayiş olunub. Süni intellekt texnologiyaları ilə hazırlanan 25 dəqiqəlik ekran əsəri onun döyüşlərə qatıldığı gündən son anlarınadək uzanan qəhrəmanlıq salnaməsini təsirli şəkildə canlandırır. Film boyunca Vətənə bağlılığın, əyilməz iradənin və fədakarlığın necə böyük bir insan taleyinə çevrildiyini görmək mümkün olur. Ekranda canlanan hər səhnə, Natiq Qasımovun şərəfli döyüş yolu, üzləşdiyi çətinliklər, onun şücaəti tamaşaçıya dərin təsir bağışlayır.

Nümayişdən sonra şəhidin ailə üzvləri adından çıxış edən qardaşı Nofəl Qasımov Natiq Qasımovla bağlı xatirələrini bölüşərək deyib: "Natiq kinomexanik işləyəndə məni özü ilə müharibə, döyüş filmlərinə baxmağa aparırdı. Deyirdi ki, bax gör necə oğullar var, yəqin, nə vaxtsa mən də belə qəhrəman olaram. Bu gün burada Natiq Qasımovla birlikdə döyüşüb şəhid olan 6 qəhrəmanın da ailə üzvləri iştirak edirlər. Film hər birimizi kövrəltdi, həmçinin çox qürurlandırdı. Filmin ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdaram".

# Rusiya Prezidenti İrana humanitar yardımın çatdırılmasında köməyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib



Rusiya Prezidenti Vladimir Putin İrana humanitar yardımın çatdırılmasında köməyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

AZƏRTAC xəbər verir ki, 29-cu Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində beynəlxalq xəbər agentliklərinin nümayəndələri ilə görüşündə AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyevin sualına cavabında Rusiya Prezidenti Vladimir Putin deyib: "İrana humanitar yardım göndərməyimizə kömək etdiyinə görə Prezident İlham Əliyevə çox minnətdarıq. Azərbaycan tərəfi bu məsələdə çox və səmərəli işləyib, bütün xahişlərimizə dərhal reaksiya verib və bu, həmin sahədə də vəziyyətin yumşaldılması üçün çox vacibdir".

❖ ❖ ❖

"Bizim Azərbaycanla həm iqtisadiyyatda, həm də siyasətdə həmişə çox yaxşı və səmimi münasibətlərimiz olub və bu davam edir".

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin 29-cu Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində beynəlxalq xəbər agentliklərinin nümayəndələri ilə görüşündə AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyevin sualına cavabında bildirib.

Bir neçə il əvvəl iki ölkə arasında Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamənin imzalandığını xatırladan Rusiya dövlətinin başçısı qeyd edib: "Prezident İlham Əliyev bu müqaviləni konkret məzmunla zənginləşdirmək üçün xeyli səy göstərir. Bu öz əksini əməkdaşlığımızın konkret istiqamətlərində tapır". Azərbaycan iqtisadiyyatına Rusiya investisiyalarının həcminin 10 milyard rublu keçdiyini vurğulayan Vladimir Putin deyib: "Rusiya kapitalı ilə çoxlu sayda müəssisə fəaliyyət göstərir. Humanitar məsələlərdə sıx qarşılıqlı fəaliyyətimiz var".

Vladimir Putin həmçinin iki ölkənin logistika sahəsində qarşılıqlı maraq doğuran bir çox məsələsinin olduğunu bildirib. Rusiya Prezidenti buna nümunə olaraq "Şimal-Cənub" nəqliyyat dəhlizini göstərib.

❖ ❖ ❖

"Rusiya və Azərbaycan bir sıra konkret istiqamətlərdə, o cümlədən energetika sahəsində danışıqlar aparır".

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin 29-cu Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində beynəlxalq xəbər agentliklərinin nümayəndələri ilə görüşündə AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyevin sualına cavabında bildirib.

"Biz bir sıra konkret istiqamətlər üzrə danışıqlar aparırıq. Bu barədə danışmaq hələ tezdir. Bu, ilk növbədə, energetikaya aiddir. Biz Prezident İlham Əliyevlə görüşəcəyik və bütün bunlar haqqında mütləq danışacağıq", - deyə Rusiya Prezidenti vurğulayıb.

Prezident Putin həmçinin qeyd edib ki, iki ölkə arasında münasibətlər çox müsbət istiqamətdə davam edir.

# Qlobal neft böhranı elektrikli avtomobillərə tələbatı rekord həddə çatdırıb



Qlobal avtomobil sənayesi tarixin ən böyük transformasiya dövrlərindən birini yaşayır. Əvvəlki illərdə elektrikli nəqliyyata keçid, sadəcə, ekologiyanı qorumaq məqsədi daşıyırdı. Bu gün isə bu proses qlobal enerji təhlükəsizliyi və iqtisadiyyatın xilası mübarizəsinə çevrilib.

Yaxın Şərqdəki gərginlik səbəbindən yaranan böyük enerji böhranı və tarixin ən böyük neft tədarükü problemi dövründə insanlar sürətlə elektrikli avtomobillərə üstünlük verməyə başlayıblar. Xüsusilə Hörmüz boğazındakı logistik risklər və neft hasilatçısı olan əsas ölkələrin tədarükündə yaratdığı fasilələr qlobal bazarlarda xam neftin qiymətini kəskin şəkildə artırıb. Bu vəziyyət ənənəvi daxili yanma mühərrikli avtomobil sahibləri üçün yanacaq xərclərini artırıb və istehlakçı davranışını kökündən dəyişib.

Beynəlxalq Enerji Agentliyi (BEA) bununla bağlı hesabat yayıb. Hesabatda qeyd olunur ki, 2026-cı ildə dünyada elektrikli avtomobil satışları yenidən artaraq 23 milyona çatacaq. Bu isə o deməkdir ki, cari il dünyada satılan hər 100 avtomobildən təxminən 30-u elektrikli olub. BEA-nın analitikləri vurğulayırlar ki, bu sürət proqnozlaşdırılandan təxminən 3-5 il daha tez baş verir və bunun əsas hərəkətverici qüvvəsi məhz geopolitik böhranlardır.

2025-ci ildə qlobal elektrikli avtomobil satışları 20 faiz artaraq 20 milyonu keçib. Dünyada satılan bütün yeni maşınların dörddəbiri elektrikli olub və onların 60 faizini Çin şirkətləri istehsal edib. Avropa və Şimali Amerika istehsalçılarının payı isə hərəyə 15 faiz təşkil edib. Bu disbalans Qərb ölkələrində ciddi narahatlıq yaradır. Avropa İttifaqı və ABŞ-nin yerli sənayeni qorumaq üçün tətbiq etdiyi subsidiyalar və daxili bazarı qoruyan gömrük tariflərinə baxmayaraq, Qərb istehsalçıları xammal tədarükü və batareya texnologiyalarındakı asılılıq səbəbindən Çin ilə rəqabətdə çətinlik çəkirlər.

Çin ötən il dünyadakı 22 milyon elektrikli maşının dörddə üçünü təkbaşına istehsal edərək qlobal mərkəz olduğunu sübut edib. Çinin elektromobil ixracı ikiqat artaraq 2,5 milyonluq rekord həddə çatıb. Avropa və ABŞ-ni çıxmaqla, dünyanın digər ölkələrində satılan elektrikli maşınların 55 faizi Çindən idxal edilib (bu rəqəm 5 il əvvəl 5 faiz idi).

Çinin bu qədər qısa müddətdə liderliyə yüksəlməsi təsadüfi deyil. Rəsmi Pekin son 15 ildə litium, kobalt və nikel kimi batareya xammallarının emalı zəncirini demək olar ki, tam nəzarətə götürüb. CATL və BYD kimi Çin nəhəngləri akkumulyator istehsalında miqyas iqtisadiyyatından (genişmiqyaslı istehsalın gətirdiyi ucuzlaşma) maksimum yararlanaraq rəqiblərindən qat-qat ucuz və səmərəli məhsullar təklif edirlər. Bu da Çin elektromobillərinin xarici bazarlarda qiymət baxımından rəqibsiz olmasına şərait yaradır.

Çin və ABŞ-dəki daxili qayda dəyişiklikləri səbəbindən 2026-cı ilin ilk rübündə qlobal satışlar ümumilikdə 8 faiz azalsa da, digər regionlarda partlayış ssenarisi yaşanıb. Məsələn, ABŞ-də bəzi federal vergi güzəştlərinin meyarlarının sərtləşdirilməsi istehlakçıların hələlik gözləmə mövqeyi tutmasına səbəb olub. Lakin bu keçici durğunluq qlobal trendi dayandıra bilməyib. Belə ki, Avropada satışlar ötən ilin eyni dövrünə nisbətən təxminən 30 faiz artıb. Avropada yanacaqdoldurma məntəqələrində dizel və benzinin qiymətinin tarixi rekordları yeniləməsi, daxili bazarda müvəqqəti tənəzzülə baxmayaraq, elektrikli nəqliyyata keçidi stimullaşdıran ən böyük amil olub.

Asiya-Sakit okean regionunda (Çin xaric) satışlar 80 faiz kəskin artıb. Latın Amerikasında isə 75 faiz artım qeydə alınıb. Latın Amerikasında, xüsusilə Braziliya və Çili kimi ölkələr ictimai nəqliyyat sistemlərini (elektrikli avtobuslar və taksilər) sürətlə elektrikləşdirir, bu da ümumi statistikaya birbaşa təsir göstərir. Cari ilin mart ayında dünyanın 90-a yaxın ölkəsində satışlar artıb, 30 ölkədə isə aylıq satış rekordu qırılıb.

Yük maşınları seqmentində də dəyişiklik var. 2025-ci ildə elektrikli yük maşınlarının satışı ikiqat artıb və dünyada satılan hər 10 yük maşınından biri elektrikli olub (əksəriyyəti Çində). Logistika şirkətləri neft böhranı dövründə daşıma xərclərini optimallaşdırmaq üçün elektrikli ağır tonnajlı maşınlara investisiya qoymağa məcburdurlar. Şəhərlərarası qısa və orta məsafəli yüklərin daşınmasında elektrikli maşınlar artıq dizel mühərriklərini sıxışdırıb çıxarır.

Cənub-Şərqi Asiya regionu (xüsusilə Vyetnam) ən sürətlə böyüyən bazar statusunu alıb. Ötən il orada satışlar ikiqat artaraq 20 faiz bazar payına çatıb. Dəyişən yanacaq qiymətləri səbəbindən bu payın 2035-ci ilə qədər 60 faizə yüksələcəyi gözlənilir. Vyetnamın "VinFast" kimi yerli brendlərinin aktiv istehsala başlaması və dövlətin infrastruktur layihələrinə verdiyi dəstək bu regionu qlobal investorların diqqət mərkəzinə gətirib.

Elektrikli avtomobillərin sürətli artımı özü ilə bəzi infrastruktur çağırışlarını da gətirir. Qlobal miqyasda sürətli şarj stansiyalarının sayı hələ də avtomobillərin artım tempinə tam cavab vermir. BEA ekspertləri qeyd edirlər ki, elektrik şəbəkələrinin gücləndirilməsi və bərpaolunan enerji mənbələrinin bu şəbəkələrə inteqrasiyası yaxın 10 ilin ən kritik məsələsi olacaq. Əks halda, kömürlə işləyən elektrik stansiyalarından alınan enerji ilə elektromobilləri doldurmaq ekoloji hədəflərə kölgə sala bilər.

BEA rəhbəri Fatih Birol bildirib ki, batareya qiymətlərinin aşağı düşməsi və hökumətlərin neft böhranına qarşı atdığı addımlar bu bazarı daha da sürətləndirəcək. Xüsusilə "bərk cisimli batareyalar" yaxın illərdə avtomobillərin həm gediş məsafəsini artıracaq, həm də qiymətlərini ənənəvi maşınlarla eyni səviyyəyə endirəcək.

Hazırda dünyada 80 milyona yaxın elektrikli avtomobil var, lakin heç bir yeni dəstək proqramı elan edilməsə belə, 2035-ci ilə qədər qlobal elektrikli avtomobil sayının 510 milyona yüksələcəyi proqnozlaşdırılır. Bu isə qlobal neft tələbatının gündəlik milyonlarla barel azalması və yaxın gələcəkdə "neft erasının" geosiyasi əhəmiyyətini itirməsi deməkdir.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Azərbaycanın enerji və tranzit strategiyası Avrasiyanın iqtisadi inteqrasiyasını sürətləndirir

"Müasir dövrdə enerji təhlükəsizliyi və etibarlı nəqliyyat marşrutları dövlətlərin iqtisadi inkişafını müəyyən edən əsas amillərdən birinə çevrilib. Qlobal geosiyasi proseslər fonunda enerji mənbələrinin və nəqliyyat dəhlizlərinin şaxələndirilməsi məsələsi beynəlxalq gündəliyin prioritet istiqamətlərindən biri kimi ön plana çıxır. Bu baxımdan Azərbaycan həm enerji resurslarının ixracı, həm də Şərqlə Qərb arasında mühüm tranzit mərkəzi kimi xüsusi əhəmiyyət kəsb edir."



Bunu AZƏRTAC-a açıqlamasında türkiyəli iqtisadçı-ekspert Canip Nuray bildirib.

Onun sözlərinə görə, Azərbaycanın son illərdə həyata keçirdiyi məqsədyönlü enerji və nəqliyyat siyasəti ölkəni Avrasiyanın ən mühüm strateji tərəfdaşlarından birinə çevirib.

"Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə reallaşdırılan irimiqyaslı enerji layihələri qlobal enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynayır. Xüsusilə "Cənub qaz dəhlizi" dünyanın ən iri enerji layihələrindən biri olmaqla Avropa üçün alternativ və etibarlı enerji mənbəyinin formalaşmasına şərait yaradıb. Azərbaycan uzun illər ərzində enerji sahəsində etibarlı tərəfdaş kimi özünü təsdiqləyib. Bu gün ölkənin təbii qazı Türkiyə və Avropa daxil olmaqla 16 ölkəyə ixrac olunur. Bu göstərici Azərbaycanın beynəlxalq enerji bazarındakı mövqeyinin gücləndiyini və onun qlobal enerji təhlükəsizliyində rolunun artdığını nümayiş etdirir", - deyə Canip Nuray vurğulayıb.

Onun sözlərinə görə, TANAP və TAP layihələri təkcə enerji infrastrukturunun deyil, həm də regional əməkdaşlığın mühüm sütunları hesab olunur. Bu layihələr vasitəsilə Azərbaycan qazı minlərlə kilometr məsafəni qət edərək Avropa istehlakçılarına çatdırılır və qitənin enerji təchizatının şaxələndirilməsinə töhfə verir.

Ekspert qeyd edib ki, son illər dünyada enerji bazarlarında baş verən dəyişikliklər fonunda Azərbaycanın əhəmiyyəti daha da artıb. Enerji böhranlarının yaşandığı dövrlərdə Azərbaycan öhdəliklərinə sadiq qalaraq tərəfdaş ölkələrin enerji təhlükəsizliyinə mühüm dəstək göstərib. Bu isə ölkənin beynəlxalq etimad kapitalını daha da gücləndirib.

Canip Nuray hesab edir ki, Azərbaycanın strateji üstünlükləri yalnız enerji resursları ilə məhdudlaşmır. Ölkənin əlverişli coğrafi mövqeyi onu Avropa ilə Asiya arasında mühüm nəqliyyat qovşağına çevirib. Xüsusilə Xəzər dənizinin şərq sahillərində yerləşən ölkələr üçün Azərbaycan beynəlxalq bazarlara çıxış baxımından ən etibarlı marşrutlardan biridir.

"Bu gün Qazaxıstan, Türkmənistan və digər Mərkəzi Asiya dövlətləri üçün Azərbaycan üzərindən keçən marşrutlar böyük əhəmiyyət daşıyır. Xəzər dənizi vasitəsilə Azərbaycana daxil olan yüklər buradan həm Türkiyə, həm Avropa, həm də Aralıq dənizi hövzəsinə daşına bilir. Bu imkanlar region ölkələrinin xarici ticarət potensialının genişlənməsinə ciddi töhfə verir", - deyə ekspert bildirib.

Canip Nuray vurğulayıb ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətinin genişləndirilməsi, dəmir yolu və avtomobil yolu infrastrukturuna yatırılan investisiyalar Azərbaycanın tranzit imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Xüsusilə Orta dəhlizin inkişafı nəticəsində Avropa ilə Asiya arasında yükdaşımaların həcmi davamlı şəkildə artır.



2026 Şəhərsalma və Memarlıq İli



# Azərbaycan memarlığı: keçmişdən müasirliyə

**Minilliklər boyu formalaşmış Azərbaycan memarlığı zəngin bir irsdir. Bu torpaqlarda məskunlaşan insanlar hələ qədim dövrlərdən təbiətin sərt şərtlərinə uyğun yaşayış məskənləri yaradıblar. Nadir tarixi abidələrdən olan Qobustan qayaüstü rəsmlərində bəşər övladlarının ilk izlərini - məişətini, düşüncə tərzini, inanclarını və mədəniyyətini görmək mümkündür. Qədim insanlar burada öz gündəlik həyatlarını, ov və mərasimləri qayaüstü rəsmlərlə əbədiləşdiriblər.**



Əcdadlarımızın bu izlərindən başlayan memarlıq yolculuğu əsrlər boyu inkişaf edərək İçərişəhərin əsrarəngiz, dar, döngəli küçələrinə, Qız qalasının əzəmətli divarlarınacan uzanıb. Şəhər mədəniyyətinin tərəqqisi ilə memarlıq daha da təkmilləşib, müdafiə qurğuları, saraylar, məscidlər, karvansaralar və körpülər inşa edilib.

Orta əsrlərdə Azərbaycan şəhərləri ticarət, sənət və mədəniyyət mərkəzləri kimi tərəqqi edib. Sonrakı dövrlərdə də bu inkişaf dayanmayıb. Şirvanşahlar Sarayı, Şəki Xan Sarayı, Naxçıvanın Möminə Xatun türbəsi və digər tikililər xalqımızın memarlıq zövqünün möhtəşəm nümunələridir. XX əsrin əvvəllərində isə Bakı dünyanın ən sürətlə inkişaf edən şəhərlərindən birinə çevrilib. Neft sənayesinin yüksəlişi şəhərin memarlıq simasını dəyişib. Avropa və Şərq memarlıq üslublarının vəhdəti nəticəsində yeni inzibati binalar, yaşayış evləri və mədəniyyət ocaqları tikilib. Bu dövr Bakının memarlıq baxımından ən rəngarəng mərhələlərindən biri kimi tarixə düşüb.

XX yüzilliyin sonlarında Azərbaycan xalqı dövlət müstəqilliyinə nail oldu. Müstəqillik illərində ölkəmizdə şəhərsalma və memarlıq sahəsində yeni inkişaf mərhələsi başladı. Respublikamızın müxtəlif bölgələrində həyata keçirilən quruculuq işləri, yeni layihələr şəhərlərin simasını dəyişdirdi, müasir infrastruktur yaradıldı, tarixi abidələrin bərpası istiqamətində mühüm işlər görüldü. Xüsusilə işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən yenidənqurma, tikinti-quruculuq işləri müasir memarlıq prinsiplərinin tətbiqi ilə geniş vüsət aldı.

Müasir Bakının simvoluna çevrilən "Alov qüllələri", Heydər Əliyev Mərkəzi və digər tikililər ölkəmizin memarlıq sahəsində qazandığı uğurların göstəricisidir. Bu layihələr milli memarlıq ənənələri ilə müasir texnologiyaların vəhdətini əks etdirir. Prezident İlham Əliyevin vurğuladığı kimi: "Bir sözlə, Bakıda, qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur. Bu, həqiqətən, əcdadlarımızın istedadının bariz nümunəsi, tarixi və memarlıq irsimizi necə qoruduğumuzun təzahürüdür. Şəhərsalma nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox şəhərləri üçün gündəlik əsaslarla işlədiyimiz məsələdir".

Bəşər tarixinin ən qədim sənətlərindən biri olan memarlıq yalnız yaşayış məkanları yaratmır, həm də xalqların yaddaşını yaşadır, onların dünyagörüşünü, mədəniyyətini və həyat tərzini gələcək nəsillərə çatdırır. Hər daşda, hər divarda, hər tikilidə bir dövrün nəfəsi, bir xalqın düşüncəsi yaşayır. Bu mənada indi ölkəmizin ayrı-ayrı bölgələrində reallaşdırılan tikinti-quruculuq işləri həm də gələcək nəsillərə ərməğandır.

Bu gün respublikamızda həyata keçirilən "yaşıl şəhərlər", "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi Azərbaycanın gələcəyə hesablanmış inkişaf modelini nümayiş etdirir. Göstərir ki, müasir memarlıq, şəhərsalma insanların rahat, təhlükəsiz və ekoloji cəhətdən sağlam mühitdə yaşamasını təmin etmək deməkdir.

Sevindirici haldır ki, bu gün Azərbaycan minilliklər boyu formalaşmış zəngin memarlıq irsi ilə dünyanın diqqətini cəlb edən ölkələrdən biridir. Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunması isə memarlıq irsimizə və şəhərsalma ənənələrimizə verilən yüksək dəyərin ifadəsidir. Bu həm də xalqımızın memarlıq irsini qorumaq və gələcək nəsillərə ötürmək üçün bir çağırışdır. Tarixi binalar, saraylar, türbələr və müasir şəhər layihələri, əslində, bir-birinə qırılmaz tellərlə bağlıdır. Onlar göstərir ki, keçmişi unutmadan gələcəyə inamla addımlamaq lazımdır. Bu mənada "Şəhərsalma və Memarlıq İli" çərçivəsində reallaşdırılan tədbirlər gənc nəslin memarlıq tariximizi daha yaxından öyrənməsi, milli irsimizə sahib çıxması baxımından da təqdirəlayiqdir.

Bu gün Azərbaycan bir tərəfdən minilliklərin yadigarı olan tarixi abidələrini qoruyur, digər tərəfdən gələcəyin şəhərlərini qurur. Keçmişlə gələcək arasında yaradılan bu körpü xalqımızın zəngin mədəni irsinin davamlılığını təmin edir. Tarixi abidələr milli yaddaşımızı yaşadırsa, müasir memarlıq layihələri gələcəyə inamımızı və inkişaf əzmimizi nümayiş etdirir. Bu baxımdan Azərbaycanın evsahibliyi etdiyi WUF13 böyük əhəmiyyət kəsb edir. Dünyanın müxtəlif ölkələrindən olan mütəxəssislərin, memarların və şəhərsalma üzrə ekspertlərin iştirak etdiyi, şəhərlərin dayanıqlı inkişafı, tarixi irsin qorunması və müasir texnologiyaların tətbiqi kimi məsələlərin müzakirəsinə geniş imkan yaradan bu mötəbər tədbirin Bakıda keçirilməsi bir daha ölkəmizin şəhərsalma sahəsində qazandığı uğurların beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini nümayiş etdirir. WUF13 Azərbaycanın keçmişlə gələcəyi birləşdirən inkişaf strategiyasını beynəlxalq ictimaiyyətə nümayiş etdirən mühüm platforma kimi yadda qaldı.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Böyük qayıdışın şəhərsalma nümunəsi



Azərbaycan tarixboyu yalnız zəngin mədəniyyəti, ədəbiyyatı və musiqisi ilə deyil, həm də özünəməxsus şəhərsalma və memarlıq ənənələri ilə də seçilib. Ölkənin müxtəlif bölgələrində yerləşən qədim qalalar, karvansaralar, məscidlər, yaşayış məhəllələri və müasir urbanizasiya nümunələri torpaqlarımızda şəhər mədəniyyətinin əsrlər boyu formalaşdığını göstərir.

Bu gün Azərbaycan şəhərlərinə nəzər saldıqda keçmişlə gələcəyin bir arada yaşadığını görmək mümkündür. Bir tərəfdə qədim memarlığın canlı şahidi olan tarixi abidələr, digər tərəfdə isə müasir texnologiyalar əsasında inşa edilən yeni yaşayış kompleksləri, yollar, parklar və ictimai məkanlar dayanır.

Prezident İlham Əliyev tərəfindən 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunması da məhz bu inkişafın və yeni mərhələnin göstəricisidir. Bu qərar ölkədə şəhərsalma sahəsində tarixi ənənələrin qorunması, milli memarlıq irsinin yaşadılması, eyni zamanda müasir və dayanıqlı yanaşmaların tətbiqinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Sərəncam yalnız memarlıq sahəsinə diqqətin artırılması deyil, həm də insan amilinə əsaslanan şəhər konsepsiyasının inkişaf etdirilməsi məqsədi daşıyır. Çünki müasir dövrdə şəhərsalma artıq təkcə binaların tikilməsi və küçələrin planlaşdırılması demək deyil. Bu sahə insanların yaşayış keyfiyyətini yüksəldən sosial, mədəni, iqtisadi və ekoloji faktorların bir sistem daxilində birləşdirilməsini nəzərdə tutur.

Azərbaycanın şəhərsalma tarixi qədim dövrlərə gedib çıxır. Tarixi mənbələr göstərir ki, ölkəmizin müxtəlif bölgələrində yerləşən şəhərlər zaman-zaman ticarət, sənətkarlıq və mədəniyyət mərkəzləri kimi inkişaf edib. Qədim İpək yolunun üzərində yerləşən Azərbaycan şəhərləri Şərqlə Qərbi birləşdirən mühüm məkanlardan biri olublar. Bu səbəbdən ölkənin şəhərsalma ənənələri həm Şərq memarlığının incəliklərini, həm də müxtəlif sivilizasiyaların təsirlərini özündə birləşdirib. Bakı, Şəki, Gəncə, Naxçıvan və Şuşa kimi şəhərlərin memarlıq siması bu zəngin tarixin izlərini bu gün də qoruyub saxlayır.

Ölkəmizin şəhərsalma sahəsində son illərdə həyata keçirdiyi ən böyük layihələrdən biri Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma prosesidir. Uzun illər işğal altında qalan bu ərazilər azad edildikdən sonra regionda tamamilə yeni şəhərsalma konsepsiyası əsasında geniş quruculuq işlərinə başlanılıb. Bu bölgədə həyata keçirilən layihələr yalnız dağıdılmış şəhərlərin bərpası deyil, eyni zamanda müasir standartlara uyğun, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarına əsaslanan yeni yaşayış məkanlarının yaradılması deməkdir.

"Böyük qayıdış" proqramı çərçivəsində artıq Qarabağ və Şərqi Zəngəzurda şəhərlər yenidən qurulur. Bu proses təkcə insanların doğma torpaqlarına qayıtması deyil, həm də həmin ərazilərdə həyatın yenidən canlanması, sosial və iqtisadi fəaliyyətin bərpası anlamına gəlir. Dövlət tərəfindən həyata keçirilən layihələr nəticəsində bölgədə yeni yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, inzibati binalar, yollar və kommunikasiya xətləri inşa edilir. Ən vacib məqamlardan biri isə odur ki, bütün bu işlər müasir şəhərsalma prinsiplərinə uyğun şəkildə həyata keçirilir.

Qarabağ və Şərqi Zəngəzurda şəhərsalma layihələri hazırlanarkən yalnız mövcud ehtiyaclar deyil, gələcək inkişaf perspektivləri də nəzərə alınır. Bu baxımdan şəhərlərin baş planlarının hazırlanması xüsusi əhəmiyyət daşıyır. Ağdam, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Füzuli, Laçın, Şuşa və Qubadlı şəhərlərinin baş planları artıq təsdiq olunub. Xocalı, Xankəndi, Xocavənd və Ağdərənin də baş planları hazırlanıb. Baş planlar şəhərlərin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən əsas sənədlər hesab olunur. Burada yaşayış zonaları, ictimai və inzibati binalar, nəqliyyat infrastrukturu, yaşıl ərazilər, sənaye və turizm zonaları, sosial xidmət sahələri və ekoloji tarazlıq kimi məsələlər kompleks şəkildə nəzərə alınır.

Bu şəhərlər arasında Ağdərə xüsusi diqqət çəkir. Prezident İlham Əliyev yanvarın 13-də Ağdərə şəhərinin Baş planı ilə tanış olub. Baş plana əsasən, şəhərin ərazisi genişləndirilərək müasir yaşayış məkanına çevriləcək. Hazırda 444 hektar olan şəhər ərazisinin 522 hektara çatdırılması nəzərdə tutulur. Eyni zamanda 20 illik perspektiv dövr üçün Ağdərədə əhalinin sayının 14 min nəfərə çatacağı proqnozlaşdırılır. Baş planın konseptual sxeminə şəhər mərkəzi, fərdi və azsıxlıqlı yaşayış sahələri, ictimai-işgüzar zonalar və çoxfunksiyalı məkanlar daxildir.

Qubadlı şəhəri də "Böyük qayıdış" proqramının əsas ünvanlarından biridir. Şəhərin Baş planının təsdiq olunması burada da geniş quruculuq işlərinin aparılmasına zəmin yaradıb. Yaxın dövrdə Ağdərə və Qubadlı şəhərlərinə köç prosesinin həyata keçirilməsi planlaşdırılır. Bu isə minlərlə ailənin uzun illərdən sonra doğma torpaqlarına qayıdacağı deməkdir. Dövlət tərəfindən həmin şəhərlərdə müasir yaşayış şəraitinin yaradılması üçün zəruri addımlar atılır. Yeni məktəblər, səhiyyə müəssisələri, mədəniyyət obyektləri, parklar və nəqliyyat infrastrukturu şəhərlərin gələcək inkişafının əsasını təşkil edir.

Şəhərsalma sahəsində həyata keçirilən layihələrin ən mühüm tərəflərindən biri ekoloji tarazlığın qorunmasına verilən diqqətdir. Müasir urbanizasiya prosesində yaşıl ərazilərin artırılması, enerji səmərəliliyinin təmin olunması və dayanıqlı infrastrukturun qurulması əsas prioritetlərdən hesab olunur. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələrdə də bu prinsiplər xüsusi yer tutur. Bölgədə alternativ enerji mənbələrinin tətbiqi, yaşıllıq zonalarının salınması və ekoloji cəhətdən təhlükəsiz tikinti materiallarından istifadə şəhərlərin dayanıqlı inkişafına xidmət edir.

Mütəxəssislərin fikrincə, müasir şəhərsalma yalnız bugünkü ehtiyacları deyil, gələcək nəsillərin maraqlarını da nəzərə almalıdır. Bu baxımdan Azərbaycanda həyata keçirilən layihələr uzunmüddətli inkişaf strategiyasına əsaslanır. Yeni salınan şəhərlərdə nəqliyyat axınının düzgün təşkili, piyadalar üçün rahat mühitin yaradılması, ictimai məkanların artırılması və rəqəmsal texnologiyaların tətbiqi şəhər həyatının daha komfortlu qurulmasına imkan verir. "Ağıllı şəhər" konsepsiyası çərçivəsində kommunal xidmətlərin rəqəmsallaşdırılması, təhlükəsizlik sistemlərinin qurulması və enerjiyə qənaət texnologiyalarının tətbiqi də mühüm istiqamətlərdəndir.

Bu gün ölkəmizin müxtəlif bölgələrində aparılan quruculuq işləri, xüsusilə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma layihələri ölkənin memarlıq və şəhərsalma tarixində yeni bir mərhələ yaradır. Azərbaycanın şəhərsalma və memarlıq ənənələri əsrlərin sınağından keçərək bu günə gəlib çatıb. İndi isə həmin ənənələr müasir texnologiyalar və yeni urbanistik yanaşmalarla birləşərək ölkənin gələcəyini formalaşdırır. Tarixi irsin qorunması ilə müasir inkişafın vəhdəti şəhərlərimizə yeni nəfəs verir. "Şəhərsalma və Memarlıq İli" isə bu istiqamətdə görülən işlərin daha geniş miqyas almasına, şəhər mədəniyyətinin inkişafına və ölkəmizin daha müasir, daha dayanıqlı şəhərlər ölkəsinə çevrilməsinə mühüm töhfə verəcək.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Azərbaycanlı qadın sahibkarlar Almaniyada təcrübə mübadiləsində iştirak ediblər

Azərbaycanın qadın sahibkarları Berlin şəhərində keçirilən təcrübə mübadiləsində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, "Resource HUB"ın təşkilatçılığı ilə baş tutan səfərin əsas məqsədi qadın sahibkarlığının inkişafı, Almaniyada qadın sahibkarlığı modellərinin öyrənilməsi, icmaəsaslı təşəbbüslərin gücləndirilməsi və Azərbaycan ilə Almaniya arasında gələcək əməkdaşlıq imkanlarının müzakirə olunmasıdır.

Səfər çərçivəsində iştirakçılar Almaniyanın müxtəlif dövlət qurumları, akademik institutları, biznes və sahibkarlıq mərkəzləri ilə görüşlər keçiriblər. Görüşlərdə qadınların iqtisadi güclənməsi, qadın sahibkarlığı ekosistemi, icmaəsaslı inkişaf, həssas qrupların əmək bazarına çıxışı və təsiryönümlü sahibkarlıq modelləri müzakirə olunub.

"Resource HUB"ın direktoru Gülnarə İsmayılova açıqlaması zamanı qadın sahibkarların beynəlxalq təcrübəyə çıxışının onların iqtisadi imkanlarını genişləndirdiyini vurğulayıb. "Almaniyada qadın sahibkarlığını dəstəkləyən müxtəlif modellərlə tanış olduq. Xüsusilə mentorluq, təlim, şəbəkələşmə, maliyyə dəstəyi və qadınlar üçün yaradılan biznes mühitinin necə işlədiyini görmək bizim üçün çox faydalı oldu. Səfər zamanı Almaniyanın Xarici İşlər Nazirliyi, "HTW Berlin" Tətbiqi Elmlər Universitetinin nəzdində "EXIST-Qadın" proqramı, "Sosial Synergy" şirkəti, "La Red" təşkilatı, "WeiberWirtschaft eG", "Crowd Ukraine" və digər qurumlarla görüşlər keçirilib. Bu görüşlər bizə göstərdi ki, qadın sahibkarlığının inkişafı təkcə fərdi biznes uğuru ilə məhdudlaşmır. Burada daha geniş yanaşma var: qadınların qərarvermədə iştirakı, icmaların gücləndirilməsi, həssas qrupların iqtisadi həyata cəlb olunması və yerli təşəbbüslərin davamlı modelə çevrilməsi. İstəyirik ki, bu təcrübələri Azərbaycanda, xüsusilə regionlarda fəaliyyət göstərən qadın icmaları ilə paylaşaq. Regionlarda qadınlarımız çox böyük potensiala malikdirlər. Düzgün bilik, əlaqə və dəstək verildikdə, onlar həm öz ailələrinə, həm də icmalarına real iqtisadi və sosial töhfə verə bilirlər", - deyə Gülnarə İsmayılova qeyd edib.



Neftçala rayonunun Qaraman icmasının rəhbəri Gülqədəm Mirzəzadə isə qadınların bir araya gəlməsi, öyrənməsi və öz bacarıqlarını iqtisadi imkana çevirməsinin yerli inkişaf üçün mühüm əhəmiyyət daşıdığını bildirib. O qeyd edib ki, icmada qadınların sosial-iqtisadi fəallığını artırmaq üçün maarifləndirici görüşlər, bacarıqların inkişafına yönələn tədbirlər və icmaəsaslı təşəbbüslər həyata keçirilir. "Qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması təkcə onların şəxsi gəlirlərini artırmır, həm də ailələrin rifahına, gənc qızların motivasiyasına və icmada sosial fəallığın güclənməsinə təsir edir. Onların bəziləri əl işləri ilə məşğuldur, bəziləri kənd təsərrüfatı məhsulları hazırlayır, bəziləri də yeni peşə bacarıqları öyrənirlər. Əsas məsələ bu bacarıqları görünən etmək, qadınlara bazara çıxış, təqdimat və əməkdaşlıq imkanları yaratmaqdır. Almaniyada gördüyümüz təcrübə bizə göstərdi ki, icma səviyyəsində kiçik addımlar böyük nəticəyə çevrilə bilər", - deyə o bildirib.

Azərbaycanda Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) əsas mövzulardan birinin də unudulmuş və istifadəyə yararsız ərazilərin bərpası olduğunu vurğulayan G.Mirzəzadə bu kontekstdə Qaraman icması tərəfindən Neftçalada köhnə və istifadə olunmayan binanın bərpa edilərək icma mərkəzi kimi istifadəyə verilməsinin Almaniyadakı görüşlər zamanı böyük maraq doğurduğunu bildirib: "İstəyirik ki, kənd qadınları özlərini təkcə ev və ailə daxilində deyil, həm də icmanın inkişafında əsas qüvvə kimi görsünlər. Qadın sahibkarlığı bizim üçün həm iqtisadi, həm də sosial məsələdir. Bu istiqamətdə beynəlxalq təcrübə mübadiləsi bizə yeni ideyalar və daha sistemli yanaşma qazandırır".

Qeyd edək ki, səfərin yekununda iştirakçılar öyrəndikləri təcrübələrin Azərbaycanda tətbiqi, qadın sahibkarlar üçün yeni əməkdaşlıq imkanları və regionlarda qadın sahibkarlığın inkişafı ilə bağlı növbəti addımları müzakirə ediblər.



# Mədəniyyət



**Ustad sənətkarlarımız**

**Azərbaycan xalqının yaratdığı mənəvi sərvətlərdən biri onun zəngin musiqi mədəniyyətidir. Bu musiqinin əsrlərin sınağından keçərək bu günümüzə qədər gəlib çatmasında xalqın yaddaşı, istedadlı sənətkarların əməyi və milli dəyərlərə sonsuz sevgisi mühüm rol oynayıb.**



# Ömrünün sonunadək tarın sehrindən çıxmadı

Dünyanın müxtəlif xalqları ölkəmizi muğam sənəti, tarın ecazkar səsi və bu sənətin yetişdirdiyi böyük ifaçılar vasitəsi ilə tanıyır. Muğam xalqımızın ruhunun, tarixinin, sevinc və kədərinin, mənəvi dünyasının bədii ifadəsidir. Bu böyük sənətin inkişafı sözsüz ki, onu yaşadan ustad sənətkarların fəaliyyəti ilə bağlıdır.

Azərbaycan musiqi mədəniyyəti tarixində tar aləti xüsusi yer tutur. Xalqımızın milli-mənəvi kimliyinin ayrılmaz hissəsinə çevrilmiş bu möhtəşəm musiqi aləti yüzilliklər boyu muğam sənətinin əsas daşıyıcısı olub. XIX əsrdə görkəmli sənətçi Sadıqcan tərəfindən təkmilləşdirilən tar yeni ifa imkanları qazanaraq Azərbaycan musiqisinin əsl simvollarından birinə çevrildi. Sadıqcanın yaratdığı məktəb sonrakı nəsillərin yetişməsinə, milli ifaçılıq ənənələrinin formalaşmasına güclü təsir göstərdi.

Bu böyük məktəbin davamçılarını xatırlayanda ilk növbədə Qurban Pirimov, Bəhram Mansurov, Əhməd Bakıxanov, Hacı Məmmədov, Əhsən Dadaşov, Baba Salahov, Ramiz Quliyev və digər ustad tarzənlərin adı yada düşür. Onların hər biri Azərbaycan tar ifaçılığına yeni nəfəs gətirmiş, milli musiqimizin inkişafına mühüm töhfələr vermiş ustad sənətkarlardır. Məhz belə bir zəngin sənət mühitində yetişən və ömrünü Azərbaycan musiqisinə həsr edən görkəmli sənətkarlardan biri də Xalq artisti Həbib Bayramovdur.

Həbib Bayramov 1926-cı il iyunun 14-də Bakıda anadan olub. Hələ uşaqlıq illərində onun musiqiyə, xüsusən tara olan marağı ailəsinin diqqətini cəlb edib. Balaca Həbibin bu sənətə sonsuz sevgisini görən atası Əbdülhüseyn kişi onu görkəmli musiqi xadimi, məşhur tarzən Əhməd Bakıxanovun yanına aparır. Bu addım sonradan Azərbaycan musiqi tarixində özünəməxsus yeri olan böyük bir sənətkarın formalaşmasının başlanğıcı olur.

Həbib Bayramov qısa müddətdə istedadı və musiqi duyumu ilə seçilməyə başlayır. 1943-cü ildə Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində təhsil alarkən təkcə nümunəvi tələbə kimi deyil, həm də müəllim çatışmazlığı səbəbindən muğamat sinfində dərs deyən gənc müəllim kimi fəaliyyət göstərir. Bu fakt onun hələ gənc yaşlarında qazandığı nüfuz və peşəkarlığının göstəricisidir.

1941-ci ildən etibarən Əhməd Bakıxanovun rəhbərlik etdiyi Azərbaycan Xalq Çalğı Alətləri Ansamblında fəaliyyət göstərən Həbib Bayramov ömrünün sonunadək bu kollektivdə işləyir. 1973-cü ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblının bədii rəhbəri kimi fəaliyyət göstərərək milli musiqimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm işlər görür. Ustad tarzənin sənət yolu beynəlxalq festivallardan da keçib. 1951-ci ildə Berlində keçirilən Tələbələrin III Dünya Festivalında iştirak edərək laureat adına layiq görülməsi gənc tarzənin beynəlxalq arenadakı ilk böyük uğuru idi. Sonrakı illərdə Polşa, Kanada, Fransa, Avstriya, Danimarka, Türkiyə, Hindistan, Suriya, İordaniya, Əfqanıstan və digər ölkələrdə çıxış edən sənətkar musiqimizi dünya auditoriyasına sevdirən sənətkarlardan olub.

Həbib Bayramov tarzənlər arasında "Rast", "Şur", "Segah", "Çahargah", "Xaric Segah", "Orta Mahur" kimi klassik muğamların məşhur ifaçısı kimi tanınıb. Onun ifa tərzi yüksək peşəkarlıq, zəngin musiqi təfəkkürü və milli ifaçılıq ənənələrinə sadiqliklə seçilirdi. Təsadüfi deyil ki, dinləyicilər onun tarının səsində həm qədim muğam məktəbinin nəfəsini, həm də müasir ifaçılığın yeniliklərini hiss edirdilər.

Görkəmli tarzənin yaradıcılığının əlamətdar cəhətlərindən biri də Azərbaycan vokal sənətinin korifeylərini tarda müşayiət etməsi olub. Bülbül, Xan Şuşinski, Zülfü Adıgözəlov, Yavər Kələntərli, Həqiqət Rzayeva, Tükəzban İsmayılova, Şövkət Ələkbərova, Əbülfət Əliyev, Rübabə Muradova, Sara Qədimova və Zeynəb Xanlarova kimi sənətkarlarla bir səhnəni bölüşmək hər tarzənin nəsibi deyil. Həbib Bayramov isə sənəti ilə bu böyük sənətkarların ifalarını tamamlayaraq Azərbaycan musiqisinin qızıl səhifələrinin yazılmasında iştirak edib.

Çoxlarının bilmədiyi maraqlı məqamlardan biri də onun saz ifaçılığı ilə məşğul olmasıdır. Ustad sənətkarın sazda ifa etdiyi "Segah", "Humayun" və "Bayatı-Qacar" muğamları bu gün də Azərbaycan radiosunun "Qızıl fond"unda qorunub saxlanılır. Bu fakt onun musiqi imkanlarının nə qədər geniş olduğunu bir daha təsdiq edir.

Həbib Bayramovun ailəsi də Azərbaycan musiqi mədəniyyətində xüsusi yer tutur. O, Xalq artisti Tükəzban İsmayılovanın həyat yoldaşı idi. Azərbaycan mahnılarının tanınmış ifaçılarından olan Xalq artisti İlhamə Quliyeva da bu sənət ocağında böyümüşdür.

Bu gün Həbib Bayramovun adı Azərbaycan musiqi tarixində hörmətlə çəkilir. O, sadəcə, virtuoz tarzən deyil, milli musiqimizin təbliğatçısı, muğam ənənələrinin qoruyucusu və Azərbaycan mədəniyyətinin dünya miqyasında tanınmasına xidmət edən böyük sənətkar idi. Onun tarının səsində bir xalqın keçmişi, milli yaddaşı və mənəvi zənginliyi yaşayırdı.

Azərbaycan musiqisi yaşadıqca, muğamlarımız səsləndikcə, tarın sehrli səsi könülləri fəth etdikcə Həbib Bayramov kimi sənətkarların xatirəsi yaşayacaq. Çünki böyük sənətkarlar dünyadan köçsələr də, onların yaratdığı sənət əbədiyyətə qovuşur və gələcək nəsillərə yol göstərən mənəvi işığa çevrilir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

**Seyfəddin Məmmədvəliyev - 90**

# Xətt-oyma sənətinin yaradıcısı

**Ötən əsrin ikinci yarısında Azərbaycanda xəttatlıq ilə oymakarlıq sənətinin birgə işlənməsi nəticəsində yaranan yeni xətt-oyma sənətinin ustası, Əməkdar mədəniyyət işçisi Seyfəddin Mənsim oğlu Məmmədvəliyevin adı ədəbi aləmdə, xüsusən də mədəniyyət, incəsənət, rəssamlıq və xəttatlıq sahəsinin nümayəndələri arasında hörmətlə çəkilir.**



Seyfəddin Mənsimoğlunun oymaçılıq sənətinə vurğunluğu kiçik yaşlarından doğulub boya-başa çatdığı Cəbrayıl rayonunun Böyük Mərcanlı kənd məktəbində təhsil aldığı illərə təsadüf edir. Bu sənətlə daha yaxından tanış olmaq məqsədilə o, 1955-ci ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinə daxil olur. 1960-cı ildə məktəbi bitirdikdən sonra gənc məzun rəssamlıq sənətinin sirlərini təhsil aldığı kənd məktəbində rəsm və rəsmxət fənni tədris edərkən uşaqlara böyük həvəslə öyrədir.

Lakin bu sənətə olan vurğunluğu, xəttatlıq sənəti ilə daha dərindən məşğul olmaq istəyi kənd müəllimini yenidən Bakıya qayıtmasına məcbur edir. Bu gəlişlə tale onu 1964-cü ildən Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu ilə bağlayır. İnstitutda işləyə-işləyə rəssamlıq sənətinin xəttatlıq və oymakarlıq sahələri ilə yaxından maraqlanır, biliyini və təcrübəsini artırmaq üçün 1970-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olur. 1975-ci ildə institutu bitirdikdən sonra yaradıcılıq işləri ilə daha ciddi şəkildə məşğul olmağa başlayır. Bir müddətdən sonra onun dünya klassiklərinə və Allah-Təalanın müqəddəs kəlamlarına, "Qurani-Kərim"dən ayələrə həsr olunmuş ağac üzərində xətt-oyma əl işləri geniş şöhrət qazanır.

Ustadın klassiklərə həsr olunmuş "Nizami Gəncəvi", "İmadəddin Nəsimi" (ilk işlərindəndir), "Sultan Məhəmməd", "Aşıq Qurbani", "Məhəmməd Füzuli türbəsi", "Mövlanə Cəlaləddin Rumi", "Hüseyn Cavid", "Leyli və Məcnun", "Babur Şah", "Üzeyir Hacıbəyli", "Əlişir Nəvai", "Xaqani Şirvani", "Məhsəti Gəncəvi", "Məhəmməd Füzuli", "Məhəmməd Allahın Rəsuludur", "Şah İsmayıl Xətai", "Şəmsi Təbrizi", "Nəsrəddin Tusi" kimi görkəmli şəxslərin portretləri, eyni zamanda müqəddəs kəlamların əks olunduğu möhtəşəm əsərləri tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır.

Mütəxəssislərin fikrincə, Seyfəddin müəllimin ağac üzərində xətti oyaraq böyük bacarıqla yaratdığı əsərlər oyma sənətində yeni bir janrın yaranmasına səbəb olmuşdur. Taxta üzərində xətt-oyma əl işlərinin hər biri əsərin kompozisiyasından, mürəkkəbliyindən asılı olaraq 2-6 ay müddətində başa gəlir. Bütün əsərlərini qızılağac, fıstıq və qoz ağacları üzərində yaradan S.Mənsimoğlunun sənət əsərləri dəfələrlə Azərbaycanda və onun hüdudlarından kənarda - Türkiyədə, Fransada, Almaniyada təşkil edilən sərgilərdə nümayiş etdirilib. Böyük sənətkarın əsərlərindən nümunələr Berlində İslam Mədəniyyəti Muzeyində, eləcə də respublikamızın muzeylərində, bir hissəsi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun sərgi zalında qorunur və təbliğ olunur.

Bu barədə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli müxbirimizə demişdir: "Seyfəddin müəllim uzun illər bizim institutun böyük hörmət və ehtirama layiq əməkdaşı olmuşdur. Xatırladım ki, müstəqil Azərbaycan dövlətçiliyi mövzusu Seyfəddin Mənsimoğlunun yaradıcılığında xüsusi yer tutur. Azərbaycan xəritəsinin fonunda dairəvi çevrənin iç səthinin kənarlarında yazılmış "Müstəqilliyimiz əbədidir" sözləri ilə əhatə olunan Ümummilli Lider Heydər Əliyevin parlaq obrazı müstəqil dövlətçiliyin simvolu mənasını daşıyır. Dairənin eşik səthinin kənarlarında Azərbaycan Respublikasının gerbinin konturlarının təsvir edilməsi ağacoyma tablosunda ifadə olunan dövlətçilik ideyasını bir daha tamamlayır. Dairəvi portretin dərinə salınmış iç səthi ilə kənar çevrəsi arasındakı boşluqla əks olunmuş parlaq xətlər günəş şüaları mənasını bildirib, Heydər Əliyev ideallarının əbədiyaşarlığı və xalqımızın yollarına daim işıq salacağı mənasını ifadə edir.

Azərbaycan Prezidenti İlham Əliyevin portretinin böyük məharətlə ağacdan işlənmiş dövlət gerbinin içərisində verilməsi dövlət rəhbərimizin simasında müstəqil dövlətçiliyimizin bundan sonra daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsinin tam zəmanət qazanması qənaətini mənalandırır. Ulu Öndər Heydər Əliyevin "Mən ona özüm qədər inanıram" sözlərinin dairəvi səthin iç kənarında həkk olunması ölkə rəhbərinə bəslənən ümumxalq etimadı fikrini daha da möhkəmləndirir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dövlətçilik rəmzləri və buta ornamentlərinin əhatəsində yerləşdirilmiş portreti, onun müstəqil dövlətimizin inkişafına göstərdiyi etibarlı dəstəyini və xoşməramlı missiyasını əks etdirir.

Seyfəddin Məmmədvəliyevin ayrıca hazırladığı "Müstəqilliyimiz əbədidir" xəttatlıq nümunəsi onun dövlətçilik silsiləsini uğurla tamamlayır. Beləliklə, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin, ölkəmizin Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın portretləri ağacoyma sənətində ilk dəfə Əməkdar mədəniyyət işçisi Seyfəddin Mənsimoğlu tərəfindən yaradılmışdır".

Respublikada və xarici ölkələrdə Seyfəddin müəllimin yaradıcılığına və əl işlərinə dair dövri mətbuatda məqalələr dərc olunmuşdur. Azərbaycan, Türkiyə, Rusiya və İran telekanalları onun haqqında verilişlər hazırlayaraq yaratdığı yeni sənət nümunələri ilə tamaşaçıları tanış etmişlər. Bundan başqa, Seyfəddin müəllimin "Çoban bulağından başlanan yol" adlı kitabı (2011) da oxucularda maraq doğurmuşdur. Kitabda xətt-oyma ustasının məqalələri, bədii yazıları və tanınmış sənət adamlarının onun haqqında xoş xatirələri toplanmışdır.

"Deyimlərim... Duyumlarım... Düyünlərim" 2014-cü ildə, "Xəttin sənət möcüzəsi" kitabı isə 2016-cı ildə işıq üzü görmüşdür. Kitabda Seyfəddin Mənsimoğlunun ağacoyma ilə xəttatlıq sənətini birləşdirən əsərlərinin fotoları əks olunmuş, haqqında Azərbaycan, ərəb və ingilis dillərində məlumat verilmişdir.

Seyfəddin müəllimin sənətə olan vurğunluğunun təsiri özünü övladlarında da göstərib. Böyük oğlu, görkəmli miniatürçü, istedadlı rəssam Fəxrəddin Məmmədvəliyevin əsərləri yalnız respublikamızda deyil, Avropa və Şərq ölkələrində də yüksək qiymətləndirilir. İkinci oğlu Firudin bacarıqlı xəttat kimi tanınır. Üçüncü oğlu Səbuhi isə mahir fotoqrafdır. Mədəniyyət, incəsənət, rəssamlıq və ədəbi aləmdə 90 illiyi qeyd edilən xətt-oyma sənətinin ustadı Seyfəddin Mənsimoğlunun yaradıcılığı bu sənətə meyil göstərən gənclər üçün örnək və məktəbdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Vyana Dövlət Operasında "Karmen" operasında baş rolu ifa edən gənc opera müğənnisi ilə görüş



**Elmina Həsənin Vyana Dövlət Operasında Jorj Bizenin məşhur "Karmen" operasında baş rolu ifa etməsi Azərbaycan musiqi mədəniyyəti üçün tarixi bir hadisədir. Bu çıxış sənətçinin həm Vyana Dövlət Operasında ilk səhnə təcrübəsi, həm də birbaşa baş rol ifa etməsi ilə əlamətdardır.**

AZƏRTAC xəbər verir ki, bu barədə gənc opera müğənnisi Elmina Həsən ilə Avstriyadakı Azərbaycan Mədəniyyət Mərkəzində keçirilən görüşdə deyilib.

Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova sənətçini Azərbaycan mədəniyyətini xaricdə yüksək səviyyədə təmsil etdiyinə görə təbrik edib və ona gələcək yaradıcılıq fəaliyyətində uğurlar arzulayıb.

Elmina Həsən görüşdə keçdiyi təhsil və sənət yolu barədə danışıb, Azərbaycan təmsilçisi kimi Vyana Dövlət Operası kimi dünyaca tanınmış səhnələrdə çıxış etməkdən qürur duyduğunu bildirib.

Görüşdə Azərbaycan mədəniyyətinin xaricdə təbliği imkanlarının genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Vyana Dövlət Operasında baş rol ifa etmək hər bir opera müğənnisinin karyerasında xüsusi yer tutur. Elmina Həsənin bu uğuru Azərbaycan mədəniyyətinin beynəlxalq arenada tanıdılması və təbliği istiqamətində mühüm nailiyyətlərdən biridir.

## Azərbaycanlı müəllifin əsəri Qərbi Sibir səhnəsində

**Rusiya Federasiyasının Qərbi Sibir regionunda yerləşən Nefteyuqansk şəhərində azərbaycanlı yazıçı-dramaturq Vüqar Haqverdiyevin "Pis uşaqlar planeti" pyesi əsasında hazırlanan tamaşasının premyerası olub. Premyera "Yunost" Mədəniyyət Mərkəzində reallaşıb. Tamaşa Rusiyanın nüfuzlu "Zvezda Teatrala" mükafatının laureatı olan "Çayka" Gənclər Teatr-Studiyası tərəfindən səhnələşdirilib. Səhnə əsərində studiyanın müxtəlif yaş qruplarını təmsil edən istedadlı aktyorlar çıxış ediblər.**



Bu barədə AZƏRTAC-a Azərbaycan Milli Elmlər Akademiyası "Elm" Nəşriyyatının direktor müavini Vüqar Haqverdiyev məlumat verib.

O bildirib ki, tamaşanın quruluşçu rejissoru teatrın rəhbəri Larisa Miroslavinadır. "Pis uşaqlar planeti" pyesi son illərdə Rusiyanın müxtəlif bölgələrində, o cümlədən Vıborq, Yamal və Omsk şəhərlərində, eləcə də Sankt-Peterburqun digər təhsil ocağı olan Nevski orta məktəbində səhnələşdirilib. "Azərbaycanlı müəllifin qələmə aldığı əsərin Sibir regionunda səhnə həyatı tapması dramaturgiyamızın xarici ölkələrdə uğurla təmsil olunmasının və müasir müəlliflərimizin əsərlərinə olan marağın daha bir nümunəsidir", -deyə o əlavə edib.

## "Uşaq dünyası" I Beynəlxalq Musiqi Festivalı başa çatıb

**Azərbaycan Dövlət Uşaq Filarmoniyası və Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının birgə təşkilatçılığı ilə keçirilən "Uşaq dünyası" I Beynəlxalq Musiqi Festivalı yekunlaşıb.**



AZƏRTAC xəbər verir ki, festival çərçivəsində müxtəlif musiqi janrlarını əhatə edən konsert proqramları - klassik musiqi axşamı, estrada caz konserti, "Retro dalğası", Uşaq Xor Kapellası, qiraət və teatr təqdimatları, sərgilər təşkil olunub.

Festivalda Azərbaycanın müxtəlif bölgələrindən - Xankəndi, Şəki və Zaqatalanı təmsil edən gənc ifaçılar, Ukrayna, Qazaxıstan, Rusiyadan gələn iştirakçılar, xüsusi qayğıya ehtiyacı olan uşaqlar iştirak ediblər. O cümlədən Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Uşaq İncəsənət Festivalı - 2025"in qalibləri də çıxışları ilə festivala rəng qatıblar.

Səidə Tağızadə, Cavad Tağızadə, Kamilla Sədirxanova, Afaq Aşumova və Məryəm Yusifova kimi tanınmış musiqiçilər gənc istedadlarla eyni səhnəni bölüşərək onlara yaradıcılıq dəstəyi göstəriblər. Festivalın bağlanış konsertində Xalq artisti Ağaverdi Paşayev və Əməkdar artist İlahə Hüseynovanın rəhbərliyi ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri və Azərbaycan Dövlət Uşaq Filarmoniyasının Uşaq-Gənclər Xalq Çalğı Alətləri Orkestrinin birgə heyəti çıxış edib. Konsert proqramında Üzeyir bəy Hacıbəylinin "Cəngi", Süleyman Ələsgərovun "Tarantella", Fikrət Əmirovun "Kor Ərəbin mahnısı", "Min bir gecə" baletindən "Şəhrizadın bayramı", Arif Məlikovun 1 nömrəli süitası, Həsən Rzayevin "Çahargah" rapsodiyası və digər dəyərli musiqi nümunələri təqdim olunub. Həmçinin xanəndələrin iştirakı ilə "Heyratı" və "Qarabağ şikəstəsi" zərbi muğamları, saz, tar, kamança, balaban, violin və nağara ifaları səsləndirilib. Azərbaycan Dövlət Uşaq Filarmoniyasının nəzdində yeni fəaliyyətə başlayan Nağaraçılar Ansamblının çıxışı da olub. Ansamblın bədii rəhbəri Mahmud Salah, dirijor isə Nisə Salah-Abbasovadır.

"Uşaq dünyası" I Beynəlxalq Musiqi Festivalı uşaqların və yeniyetmələrin yaradıcılıq imkanlarının inkişaf etdirilməsi, onların milli-mənəvi dəyərlər ruhunda yetişdirilməsi və böyük səhnəyə çıxarılması ölkəmizin mədəni həyatında mühüm əhəmiyyət daşıyır. Festival gənc istedadların öz bacarıqlarını nümayiş etdirməsi, yeni dostluq və yaradıcılıq əlaqələri qurması üçün geniş imkanlar yaradıb.

Sonda Azərbaycan Dövlət Uşaq Filarmoniyasının direktoru, pianoçu Səidə Tağızadə bütün iştirakçılara, müəllimlərə və layihədə əməyi keçən şəxslərə sertifikat və təşəkkürnamələr təqdim edib.

# 2026 FİFA Dünya Kuboku - ilk dəfə 48 komandanın yarışacağı mundial

| | A qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Meksika | | 11.06 | 19.06 | 25.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | CAR | 11.06 | | 25.06 | 18.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | Cənubi Koreya | 19.06 | 25.06 | | 12.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | Çexiya | 25.06 | 18.06 | 12.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

| | B qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Kanada | | 19.06 | 24.06 | 12.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | Qətər | 19.06 | | 13.06 | 24.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | İsveçrə | 24.06 | 13.06 | | 18.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | Bosniya və Herseqovina | 12.06 | 24.06 | 18.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

| | C qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Braziliya | | 14.06 | 20.06 | 25.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | Mərakeş | 14.06 | | 25.06 | 20.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | Haiti | 20.06 | 25.06 | | 14.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | Şotlandiya | 25.06 | 20.06 | 14.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

| | D qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | ABŞ | | 13.06 | 19.06 | 26.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | Paraqvay | 13.06 | | 26.06 | 20.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | Avstraliya | 19.06 | 26.06 | | 14.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | Türkiyə | 26.06 | 20.06 | 14.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

| | E qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Almaniya | | 14.06 | 20.06 | 25.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | Kürasao | 14.06 | | 25.06 | 21.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | Fil Dişi Sahili | 20.06 | 25.06 | | 15.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | Ekvador | 25.06 | 21.06 | 15.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

| | F qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Niderland | | 14.06 | 26.06 | 20.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | Yaponiya | 14.06 | | 21.06 | 26.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | Tunis | 26.06 | 21.06 | | 15.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | İsveç | 20.06 | 26.06 | 15.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

| | G qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Belçika | | 15.06 | 21.06 | 27.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | Misir | 15.06 | | 27.06 | 22.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | İran | 21.06 | 27.06 | | 16.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | Yeni Zelandiya | 27.06 | 22.06 | 16.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

| | H qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | İspaniya | | 15.06 | 21.06 | 27.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | Kabo-Verde | 15.06 | | 27.06 | 22.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | Səudiyyə Ərəbistanı | 21.06 | 27.06 | | 16.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | Uruqvay | 27.06 | 22.06 | 16.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

| | İ qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Fransa | | 16.06 | 26.06 | 23.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | Seneqal | 16.06 | | 23.06 | 26.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | Norveç | 26.06 | 23.06 | | 17.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | İraq | 23.06 | 26.06 | 17.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

| | J qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Argentina | | 17.06 | 22.06 | 28.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | Əlcəzair | 17.06 | | 28.06 | 23.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | Avstriya | 22.06 | 28.06 | | 17.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | İordaniya | 28.06 | 23.06 | 17.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

| | K qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Portuqaliya | | 23.06 | 28.06 | 17.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | Özbəkistan | 23.06 | | 18.06 | 28.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | Kolumbiya | 28.06 | 18.06 | | 24.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | Konqo DR | 17.06 | 28.06 | 24.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

| | L qrupu | 1 | 2 | 3 | 4 | O | Q | H | M | T | F | X |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | İngiltərə | | 17.06 | 23.06 | 28.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 2 | Xorvatiya | 17.06 | | 28.06 | 24.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 3 | Qana | 23.06 | 28.06 | | 18.06 | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |
| 4 | Panama | 28.06 | 24.06 | 18.06 | | 0 | 0 | 0 | 0 | 0-0 | 0 | 0.0 |

**Futbol üzrə XXIII Dünya Çempionatı iyunun 11-dən iyulun 19-dək təşkil ediləcək. Yarış ABŞ-nin 11, Meksikanın 3 və Kanadanın 2 şəhəri olmaqla ümumilikdə 16 şəhərdə keçiriləcək.**

ABŞ-də matçlar Atlanta, Boston, Dallas, Hyuston, Kanzas-Siti, Los-Anceles, Mayami, Nyu York, Filadelfiya, San-Fransisko və Sietldə təşkil olunacaq.

Meksika dünya çempionatında Qvadalaxara, Mexiko və Monterrey şəhərləri ilə təmsil edilir. Kanadada isə millilər Toronto və Vankuver şəhərlərində yarışacaqlar. Mundialda planlaşdırılmış 80 oyundan 60-ı ABŞ-də, digər 20 oyun isə Meksika və Kanadada baş tutacaq.

2026 FİFA Dünya Kuboku üç ölkə tərəfindən ortaq təşkil edilən və iştirakçı sayı 32 komandadan 48-ə yüksəldilən ilk turnir olacaq. Bu barədə qərarı FİFA prezidenti Canni İnfantino 2018-ci il iyunun




12-də təşkilatın Moskvada keçirilən konqresində elan etmişdi.

Dünya çempionatının Meksika ilə Cənubi Afrika Respublikası arasında keçiriləcək açılış oyunu iyunun 11-də Bakı vaxtı ilə saat 23:00-da başlayacaq. Final isə iyulun 19-da Nyu Cersi ştatındakı "MetLife" stadionunda keçiriləcək.

İyunun 14-də keçiriləcək Avstraliya-Türkiyə qarşılaşması Bakı vaxtı ilə saat 08:00-da başlayacaq. Türkiyə millisinin 2-ci turda Paraqvayla oyunu da səhər saat 08:00-da start götürəcək. 3-cü turdakı ABŞ-yə qarşı matç isə iyunun 26-da saat 06:00-da baş tutacaq.

Qruplarda birinci və ikinci yeri tutan komandalar, eləcə də üçüncü yeri tutan ən yaxşı 8 komanda (ümumilikdə isə 32 milli) 1/16 finala vəsiqə qazanacaq.

*Hazırladı:*
***R.CƏFƏROV,***
***"Azərbaycan"***




# Ermənistan və ABŞ "Tramp marşrutu" üzrə saziş imzalayıblar

## Çərçivə sazişi zəruri daxili prosedurları yerinə yetirdikdən və sənədi təsdiqlədikdən sonra TRIPP-ın işə salınması üçün əsas ola bilər

**Ermənistan və ABŞ Dövlət katibi Marko Rubionun mayın 26-da Ermənistana səfəri zamanı paraflanan "Tramp marşrutu"nun (TRIPP) işə salınması haqqında çərçivə sazişi imzalanıb.**

"Armenpress" Agentliyi xəbər verir ki, bu barədə Ermənistan Xarici İşlər Nazirliyi məlumat verib. Nazirlik xarici işlər naziri Ararat Mirzoyanın sənədi imzaladığını göstərən video da yayımlayıb.

"Hörmətli vətəndaşlar, bir neçə saniyə əvvəl, gözlərinizin qarşısında ABŞ ilə Ermənistan arasında TRIPP çərçivə sazişini imzaladım. Yadınızdadırsa, bir neçə gün əvvəl Ermənistana səfəri zamanı mən və ABŞ Dövlət katibi Marko Rubio sənədi paraflamışdıq. İndi isə Dövlət katibi Rubio sənədi imzalayıb, İrəvana göndərib və mən də Ermənistan



tərəfindən imzaladım. Bu, məsafədən imzalama prosesini tamamlayır və saziş təsdiq üçün hazırdır", - deyə A.Mirzoyan bildirib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Türk politoloq Ermənistandakı seçkilərlə bağlı "Anadolu" Agentliyinə şərh verib

York Universitetində Avrasiya geosiyasəti üzrə doktorantura təhsili alan Burak Çalışkan Türkiyənin rəsmi "Anadolu" Agentliyinə Ermənistanda iyunun 7-də keçiriləcək parlament seçkiləri ilə bağlı şərh verib.

AZƏRTAC xəbər verir ki, politoloqun fikrincə, seçkilərin nəticələri Ermənistanın xarici siyasətində və qonşuları ilə münasibətlərində də hiss olunacaq. Nikol Paşinyanın yenilənmiş mandatı Azərbaycanla sülh sazişinin imzalanması istiqamətində irəliləyişi, Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşmasını və regional nəqliyyat marşrutlarının canlanmasını sürətləndirə bilər. Bu baxımdan Qars-Gümrü dəmir yolu xəttinin bərpası və Əlican-Marqara sərhəd-keçid məntəqəsinin açılması ikitərəfli ticarəti artıracaq, həmçinin Türkiyəni Cənubi Qafqaz, Xəzər hövzəsi və Mərkəzi Asiya ilə birləşdirən logistika marşrutlarını gücləndirəcək.

Politoloq qeyd edib: "Bu məqamda normallaşma təkcə Ankara ilə İrəvan arasında diplomatik əlaqələrin inkişaf etdirilməsi demək deyil. Prosesin strateji çəkisi Orta dəhlizin gələcəyi, qlobal enerji marşrutları və bölgədəki yeni güc balansları ilə əlaqəsindədir. Azərbaycanı Ermənistanın Sünik bölgəsi vasitəsilə Naxçıvana və daha sonra Türkiyəyə bağlaması nəzərdə tutulan Zəngəzur dəhlizi də bu müzakirənin mərkəzindədir. Bu layihənin reallaşması Cənubi Qafqazın regional ticarət və enerji axınlarının Avropa bazarlarına çatmasını təmin etməkdə strateji əhəmiyyətini artıracaq".

B.Çalışkan vurğulayıb ki, bunun əksinə, Paşinyanın parlamentdə hakimiyyətini itirməsi və ya normallaşmaya tərəddüd edən aktorların təsirinin artması bu prosesi əhəmiyyətli dərəcədə ləngidə bilər. Belə bir ssenari son illərdə əldə edilən diplomatik nailiyyətlərin azalmasına və regionu yenidən struktur qeyri-müəyyənliyinə gətirib çıxaracaq. Ankara və Bakı ilə birbaşa əlaqələrin zəifləməsi regional nəqliyyat və enerji layihələri ilə bağlı planlara da mənfi təsir göstərəcək. Buna görə də 7 iyun seçkiləri təkcə Ermənistanın daxili siyasi balansını deyil, həm də Cənubi Qafqazda sülhün, əlaqənin və geosiyasi güc balanslarının formalaşacağı konkret parametrləri müəyyən edən mühüm bir dönüş nöqtəsi olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu və professor-müəllim heyəti universitetin prorektoru Aqil Məmmədova əzizi, general-mayor

**ƏLİMUSA ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3794
Sifariş 693

Qiyməti 60 qəpik